TKTA

Təhsildə Keyfiyyət Təminatı Agentliyi

İnsan Kapitalının İnkişafı Məqsədli Dövlət Proqramları: 2007-2015, 2019-2023

**Azərbaycan Dövlət Aqrar Univesiteti – EGE Universiteti İkili Diplom Proqramları**

**Aqronomluq – 050701, Bitki mühafizəsi – 050705, Aqromühəndislik – 050602, İqtisadiyyat – 050405**

---

**(Təhsil müəssisəsinin və təhsil proqramının müvafiq təsnifat üzrə şifri və adı)**

**Proqram akkreditasiya qiymətləndirilməsinə dair Akkreditasiya Komissiyasının**

# YEKUN HESABATI

**2024-cü il**

## AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ

**Sədr:**

1. İlham Şahmuradov - b.e.d., Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Azərbaycan Respubıikası Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun Bioinformatika laboratoriyasının müdiri; Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Biofizika İnstitutunun İnteqrativ biologiya laboratoriyasının rəhbəri

**Üzvlər:**

1. Balayar Şahbazov - a.ü.f.d., dosent, Lənkəran Dövlət Universiteti, Aqromühəndislik fakültəsinin dekanı
2. Namiq Şalbuzov - i.ü.f.d., Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Tədqiqatlar Mərkəzinin direktor müavini
3. İlham Rüstəmov - i.ü.f.d., dosent, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, İqtisadiyyat və menecment fakültəsinin dekanı
4. Anar Qocayev - b.ü.f.d., ADA Universiteti, Təhsilin idarəolunması fakültəsi, Ümumi Təhsil Proqramının baş müəllimi
5. Elgün Mustafabəyli - m.ü.f.d., "WeGrow" MMC, aqronom
6. Serkan Şimşek - CASPIANAGRO MMC, direktor
7. Samirə Salayeva - b.ü.f.d., dosent, Bakı Dövlət Universiteti, Genetika kafedrasının dosenti
8. Məhəmməd Eldarov - b.ü.f.d., Xəzər Universiteti, Təbiət elmləri, Sənət və Texnologiya yüksək təhsil fakültəsinin dekan müavini
9. Vaqif Fətullayev - Azərbaycan Dövlət Pedaqoji Universiteti, SABAH magistratura proqramının Təlim və tədrisin təşkili və metodikası ixtisaslaşması üzrə II kurs magistr tələbəsi
10. Əli İbrahimov - a.ü.f.d., dosent, Aqrar Xidmətlər Agentliyinin LESM Mərkəzi laboratoriyasının direktoru

## MÜNDƏRİCAT


AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ .......... 2

Qısaltmalar .......... 4

Giriş .......... 5

Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilmə nəticələri .......... 7

1. Təhsil proqramı üzrə təhsilalanların qəbulu .......... 7
2. Təhsil proqramları üzrə əvvəlki kvalifikasiyaların tanınması .......... 10
3. Təhsil proqramı üzrə tədrisin təşkili .......... 11
4. Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları .......... 18
5. Tədris proqramı üzrə istifadə olunan təlim və tədris resursları .......... 23
6. Tədris proqramı üzrə tələb olunan təhsil infrastrukturu və maddi-texniki baza .......... 26
7. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi .......... 27
8. Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti .......... 27
9. Təhsil proqramı üzrə tələbəyönümlü tədris .......... 29
10. Təhsil proqramının monitorinqi .......... 31
11. Təhsil proqramının davamlı təkmilləşdirilməsi və yenilənməsi .......... 34
12. Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi .......... 35

Komissiyanın meyarlar üzrə təhlili .......... 36

Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri .......... 48

Təhsil proqramının akkreditasiyası üzrə Komissiyanın yekun rəyi .......... 48

## Qısaltmalar

**ADAU** – Azərbaycan Dövlət Aqrar Universiteti

**AR** – Azərbaycan Respublikası

**ATM** – Ali təhsil müəssisəsi

**D/S** – Dövlət sifarişi əsaslarla

**EU** – Ege Universiteti

**İDP** – İkili Diplom Proqramı

**PMH** – Professor-müəllim heyəti

**QB** – Qəbul balı

**Ö/Ə** – Ödənişli əsaslarla

**RK** – Rəhbər Komitə

## Giriş

## Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar

| | |
|---|---|
| **Təhsil müəssisəsinin adı** | Azərbaycan Dövlət Aqrar Universiteti |
| **Təhsil səviyyəsi** | Bakalavriat |
| **Təhsil Proqramının şifrəsi və adı*** | 1. 050701 Aqronomluq - Ege<br>2. 050705 Bitki mühafizəsi - Ege<br>3. 050602 Aqromühəndislik - Ege<br>4. 050405 İqtisadiyyat - Ege |
| **Təhsil müəssisəsinin rəhbəri** | t.e.n., dosent, Qurbanov Zəfər Qəzənfər oğlu |
| **Fakültənin adı** | Ege Universiteti Ziraat (Kənd Təsərrüfatı) fakültəsi |
| **Təhsil proqramının təhkim olunduğu kafedra(lar) sayı** | **I. Kənd Təsərrüfatı fakültəsi üzrə:**<br>1. Bağçılıq / Bahçe bitkileri<br>2. Bitki mühafizəsi / Bitki koruma<br>3. Süd texnologiyası / Süt teknolojisi<br>4. Aqrar iqtisadiyyat / Tarım ekonomisi<br>5. Kənd təsərrüfatı texnikası və texnologiyaları mühəndisliyi / Tarım makinaları ve teknolojileri mühendisliği<br>6. Kənd təsərrüfatı strukturları və irriqasiyası / Tarımsal yapılar ve sulama<br>7. Aqronomluq / Tarla bitkileri<br>8. Torpaqşünaslıq və bitkilərin qidalanması / Toprak bilimi ve bitki besleme<br>9. Zoomühəndislik / Zooteknik<br>**II. Mühəndislik fakültəsi üzrə:**<br>1. Qida mühəndisliyi / Gıda mühendisliği<br>**III. Türk Dünyası Araştırmaları İnstitutu**<br>**IV. Fənn fakültəsi üzrə:**<br>1. Riyaziyyat / Matematik<br>2. Fizika / Fizik<br>3. Kimya / Kimya<br>4. Biologiya / Biyoloji<br>5. Biokimya / Biyokimya<br>Yuxarıda qeyd olunan 4 ixtisas üzrə təhsil proqramı Kənd Təsərrüfatı fakültəsi üzrə 9, Mühəndislik fakültəsi üzrə 1, Fənn fakültəsi üzrə 5, əlavə olaraq Türk Dünyası Araşdırmaları İnstitutu da daxil olmaqla, ümumilikdə 16 kafedraya təhkim olunmuşdur. |
| **Təhsil proqramı üzrə təhsilalanların kontingenti** | ADAU-EU İDP çərçivəsində bakalavriat səviyyəsi üzrə hazırda cəmi 314 nəfər tələbə təhsil alır. Belə ki, tələbə qəbulu planına görə maksimum 360 tələbə (hər qəbul ilində, hər ixtisas üzrə 30 tələbə qəbulu nəzərdə tutulduğu üçün) ola bilərdi. Lakin (1) hər bir ixtisas üzrə hər il 30 tələbənin qəbul olunmaması, (2) 2020-ci ildə “Aqromühəndislik” ixtisası üzrə tələbə qəbulunun olmaması və (3) müxtəlif illərdə Universitetdən xaric olunmalar yaxud İDP-dən “adi” (əyani) təhsil formasına və əksinə köçürülmələrin olması nəticəsində İDP üzrə cəmi 331 tələbə qəbul olunmuşdur.<br>**2020/2021**-ci tədris ilində qəbul olanlar - **48 nəfər:**<br>1. Aqronomluq ixtisası – 30 nəfər<br>2. Bitki mühafizəsi ixtisası – 10 nəfər<br>3. İqtisadiyyat ixtisası – 8 nəfər |

| | |
|---|---|
| | **2021/2022**-ci tədris ilidə qəbul olanlar - **78 nəfər:**<br>1. Aqronomluq ixtisası – 30 nəfər<br>2. Bitki mühafizəsi ixtisası – 10 nəfər<br>3. İqtisadiyyat ixtisası – 9 nəfər<br>4. Aqromühəndislik ixtisası – 29 nəfər<br>**2022/2023**-cü tədris ilidə qəbul olanlar - **93 nəfər:**<br>1. Aqronomluq ixtisası – 30 nəfər*<br>2. Bitki mühafizəsi ixtisası – 9 nəfər<br>3. İqtisadiyyat ixtisası – 24 nəfər<br>4. Aqromühəndislik ixtisası – 30 nəfər<br>**2023/2024**-cü tədris ilidə qəbul olanlar - **112 nəfər:**<br>1. Aqronomluq ixtisası – 30 nəfər*<br>2. Bitki mühafizəsi ixtisası – 29 nəfər<br>3. İqtisadiyyat ixtisası – 24 nəfər<br>4. Aqromühəndislik ixtisası – 29 nəfər |
| **Təhsil proqramı üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı (manatla)** | Bakalavriat:<br>**1.Aqronomluq ixtisası:** D/S: 2100 AZN; Ö/Ə: 1700 AZN<br>**2.Bitki mühafizəsi ixtisası:** D/S: 2100 AZN; Ö/Ə: 1700 AZN<br>**3.Aqromühəndislik ixtisası:** D/S: 2100 AZN; Ö/Ə: 1700 AZN<br>**4.İqtisadiyyat ixtisası:** D/S: 1710 AZN; Ö/Ə: 1800 AZN |
| **Təhsil proqramı üzrə təlim və tədris prosesinə cəlb edilmiş ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətinin sayı** | **2020/2021**-ci tədris ilində (online) – 3 ixtisas üzrə **59** nəfər professor-müəllim;<br>**2021/2022**-ci tədris ilinin Payız semestrində 4 ixtisas üzrə Ege Universitetindən **11**, Yaz semestrində **23**, cəmi **34** nəfər, ADAU-dan **47** nəfər professor-müəllim (2020/2021 tədris ili üzrə təhsilalanlar üçün);<br>**2022/2023**-cü tədris ilinin Payız semestrində Ege Universitetindən 4 ixtisas üzrə **36**, Yaz semestrində **33**, cəmi **69** nəfər professor-müəllim;<br>**2023/2024**-cü tədris ilinin Payız semestrində 4 ixtisas üzrə Ege Universitetindən **42** nəfər professor-müəllim tədrisə cəlb edilmişdir.<br>**Qeyd:** Türk dili fənnindən C1 səviyyə imtahanlarını təşkil etmək üçün Türk Dünyası Araşdırmaları İnstitutundan **2022**-ci ilin sentyabr ayında **3** müəllim, **2023**-cü ildə **3** müəllim cəlb olunmuşdur. |
| **Təhsil proqramı üzrə əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı** | Saat hesabı qaydası ilə:<br>**2021/2022**-ci tədris ilinin Yaz semestrində ADAU-dan 2 nəfər;<br>**2022/2023**-cü tədris ilinin Payız semestrində ADAU-dan 7 nəfər, Yaz semestrində 3 nəfər;<br>**2023/2024**-cü tədris ilinin Payız semestrində ADAU-dan 12 nəfər professor-müəllim heyəti saat-hesabı qaydası ilə tədrisə cəlb edilmişdir. |
| **Təhsil müəssisənin elektron ünvanı və əlaqə telefonu** | office@adau.edu.az Tel:+994220266057033 |
| **Təhsil müəssisənin hüquqi ünvanı** | Gəncə şəhəri, Atatürk prospekti 450 |
| **Təhsil müəssisənin faktiki ünvanı** | Gəncə şəhəri, Ozan küçəsi, 100 A |

## Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilmə nəticələri

### 1. Təhsil proqramı üzrə təhsilalanların qəbulu

Ege Universiteti ilə Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU) arasında bakalavriat səviyyəsində “Aqronomluq”, “Bitki mühafizəsi”, “İqtisadiyyat” və “Aqromühəndislik” ixtisasları üzrə Beynəlxalq Təhsil Proqramlarının birgə tətbiqinə dair Protokolun 6-cı maddəsinə əsasən, ikili diplom proqramı çərçivəsində “Aqronomluq”, “Bitki mühafizəsi”, “İqtisadiyyat” və “Aqromühəndislik” ixtisaslarının hər birinə maksimum tələbə qəbulu sayı 30 olmuşdur. Qeyd olunmuş maddəyə müvafiq olaraq, ikili diplom proqramı çərçivəsində ADAU-nun “Aqronomluq” “Bitki mühafizəsi”, “İqtisadiyyat” və “Aqromühəndislik” ixtisasları üzrə 2020-2023-cü tədris illərində cəmi 331 tələbə qəbul olunmuşdur (Cədvəl 1).

**Cədvəl 1.** İDP çərçivəsində ixtisaslar və illər üzrə qəbul olunmuş tələbələrin sayı

| İxtisaslar | Qəbul olunub (illər üzrə və cəmi) | | | | | Hazırda İDP çərçivəsində təhsil alan tələbələrin ümumi sayı** |
|---|---|---|---|---|---|---|
| | 2020 | 2021 | 2022 | 2023 | Cəmi | |
| **Aqronomluq** | 30 | 30 | 30 | 30 | **120** | **119** (30 - I kurs, 31 - II kurs, 28 - III kurs, 30 - IV kurs) |
| **Bitki mühafizəsi** | 10 | 10 | 9 | 29 | **58** | **51** (29 - I kurs, 9 - II kurs, 10 - III kurs, 3 - IV kurs) |
| **İqtisadiyyat** | 8 | 9 | 24 | 24 | **65** | **57** (26 - I kurs,16 - II kurs, 8 - III kurs, 7 - IV kurs) |
| **Aqromühəndislik*** | - | 29 | 30 | 29 | **88** | **87** (29 - I kurs, 29 - II kurs, 29 - III kurs) |
| **Cəmi** | 48 | 78 | 93 | 112 | **331** | **314** (114 - I kurs, 85 - II kurs, 75 - III kurs, 40 - IV kurs) |

* 2020-ci ildə “Aqromühəndislik” ixtisası üzrə tələbə qəbulu olmamışdır.

** Qəbul olunan və hazırda təhsilini davam etdirən tələbələrin sayları arasındakı fərqlərin səbəbləri müxtəlif illərdə Universitetdən xaric olunmalar yaxud İDP-dən “adi” (əyani) təhsil formasına və əksinə köçürülmələrdir (təfərrüatları aşağıda verilir).

Müxtəlif illərdə cəmi **16** tələbə Universitetdən xaric edilmişdir:

- 1 tələbə - “Aqronomluq – EGE” ixtisası (Əmr № 176, 14.03.2022, öz ərizəsi ilə);
- 1 tələbə - “Bitki mühafizəsi – EGE” ixtisası (Əmr № 177, 14.03.2022, qeydiyyatdan keçmədiyi üçün);
- 1 tələbə - “İqtisadiyyat– EGE” ixtisası (Əmr № MİHO/1.2.15-3.1-2022-920,14.10.2022, öz ərizəsi ilə);
- 1 tələbə - “Bitki mühafizəsi – EGE” ixtisası (Əmr № 138, 04.03.2022, öz ərizəsi ilə);
- 1 tələbə - “İqtisadiyyat– EGE” ixtisası (Əmr № 916, 14.10.2022)

- 5 tələbə - “İqtisadiyyat – EGE” ixtisası (Əmr № 3-22-23/3-1-151/2023, 09.02.2023, qeydiyyatdan keçmədiyi üçün).
- 1 tələbə - “Bitki mühafizəsi – EGE” ixtisası (Əmr № 3-22-23/3-1-289/2023, 07.03.2023, qeydiyyatdan keçmədiyi üçün);
- 4 tələbə - “Bitki mühafizəsi – EGE” ixtisası (Əmr № 856, 12.07.2023, 2 nəfər akademik borcuna görə və 2 nəfər ailə səbəblərinə görə);
- 1 tələbə - “İqtisadiyyat – EGE” ixtisası (Əmr № 856, 12.07.2023, akademik borcuna görə).

Müxtəlif illərdə cəmi **5** tələbə akademik məzuniyyət götürmüşdür:

- 1 tələbə (2021/2022-ci ildə “Aqronomluq – EGE” ixtisası üzrə ADAU-ya qəbul olunub) akademik məzuniyyət götürmüş (Əmr № MİHO/1.2.15-3.1-2022-723, 19.09.2022) və 2022/2023 tədris ilində təhsilinə geri qayıtmışdır (Əmr № MİHO/1.2.15-3.1-2022-723, 19.09.2022);
- 1 tələbə (2022/2023-cü ildə “İqtisadiyyat – EGE” ixtisası üzrə ADAU-ya qəbul olunub) akademik məzuniyyət götürmüş (Əmr № MİHO 1.2.15 – 3.1. – 971– 2022, 26.10.2022) və daha sonra 2024/2025-ci tədris ilinin başlanğıcınadək akademik məzuniyyəti uzadılmışdır (Əmr № 3-22-23/3-1-1224/2023, 04.10.2023);
- 1 tələbə (2022/2023-cü ildə “İqtisadiyyat – EGE” ixtisası üzrə ADAU-ya qəbul olunub) 23.02.2023-cü il tarixinədək akademik məzuniyyət götürmüş (Əmr № 3-22-23/3-1-257/2023, 01.03.2023) və sonra akademik məzuniyyətdən geri qayıtmışdır (Əmr 3-22-23/3-1-918/2023, 31.07.2023);
- 1 tələbə (2020/2021-ci ildə “Bitki mühafizəsi – EGE” ixtisası üzrə ADAU-ya qəbul olunub) öz ərizəsinə əsasən tələbələr sırasından xaric edilmiş (Əmr № 3-22-23/3-1-289/2023, 07.03.2023), sonra öz ərizəsinə əsasən tələbələr sırasına bərpa olunmuş və ailə vəziyyəti ilə əlaqədar olaraq 2024/2025-ci tədris ilinin başlanğıcınadək akademik məzuniyyət götürmüşdür (Əmr № 3-22-23/3-1-1200/2023, 02.10.2023);
- 1 tələbə (2023/2024-cü ildə “İqtisadiyyat – EGE” ixtisası üzrə ADAU-ya qəbul olunub) 2024/2025-ci tədris ilinin başlanğıcınadək akademik məzuniyyət götürmüşdür (Əmr № 3-22-23/3-1-1265/2023, 10.10.2023).

Bir proqramdan digər proqrama **5** tələbə köçürməsi olmuşdur:

- 4 tələbə (2023/2024-cü ildə “İqtisadiyyat” ixtisası üzrə ADAU-ya qəbul olunub - əyani təhsil forması) Dövlət İmtahan Mərkəzinin və Azərbaycan Respublikası Təhsil Nazirliyinin razılığı ilə İDP-nin “İqtisadiyyat – Ege” ixtisasına (ödənişli əsaslarla) köçürülmüşdür (Əmr № MİHO/1.2.15.3.1-2022-144, 05.03.2022);
- 1 tələbə (2021/2022-ci ildə “İqtisadiyyat – EGE” ixtisası üzrə ADAU-ya qəbul olunub) “İqtisadiyyat” ixtisası üzrə əyani təhsil formasına (2-ci kursa, ödənişli) köçürülmüşdür (Əmr № MİHO /1.22.15-3.1-2022-916, 14.10.2022).

**Cədvəl 2.** İDP çərçivəsində ixtisaslar və illər üzrə tələbələrin qəbul ballarının (QB) dinamikası*

| **İxtisas** | **2020-ci il** | | **2021-ci il** | | **2022-ci il** | | **2023-cü il** | |
|---|---|---|---|---|---|---|---|---|
| | **QB intervalı** | **Orta QB** | **QB intervalı** | **Orta QB** | **QB intervalı** | **Orta QB** | **QB intervalı** | **Orta QB** |
| Aqronomluq | 240.8 – 466.3 | **259.2** | 235.2 – 411.4 | **266.5** | 220.7 – 420.6 | 263.4 | 204.4 – 268.6 | **228.8** |
| Bitki mühafizəsi | 195.3 – 421.1 | **206** | 150.2 – 311.1 | **205.7** | 161.3 – 436.4 | 243.9 | 92.4666 – 357.4 | **211.3** |
| İqtisadiyyat | 253.4 – 571.9 | **355.9** | 399.6 – 618.9 Daxili əmrlə sonradan bu ixtisasa köçürülmüş tələbələrdə 242.8 - 303.5 | **325.6** | 60.9330 – 448 | 325.3 | 64.0920 – 519.1 | **325.3** |
| Aqromühəndislik | --- | --- | 222.9 – 314.1 | **241.6** | 220.6 – 577.5 | 267 | 201.0 – 338.4 | **220.3** |

* Qəbul balları üzrə göstəricilər ADAU-nun Akkreditasiya Komissiyasına təqdim etdiyi “Ali təhsil pilləsinin bakalavriat səviyyəsinə qəbul edilmiş abituriyentlər” siyahısından götürülmüşdür.

İndiyədək İDP çərçivəsində, 4 ixtisas üzrə cəmi 4 nəfərin qəbul balı 500 və daha çox olmuşdur: **1** nəfər **“Aqromühəndislik”** ixtisası üzrə (578 bal) və **3** nəfər **“İqtisadiyyat”** ixtisası üzrə (572, 619 və 519 bal). Bundan başqa, 2023-cü ildə 3 ixtisas (“İqtisadiyyat” ixtisası” istisna olmaqla) üzrə orta qəbul balı aşağı düşmüşdür (təxminən 30 bal). Əlbəttə, bu “mənfi”

tendensiyanın dəqiq səbəb(lər)ini müəyyənləşdirmək mümkün deyildir. Lakin bu məsələdə qısa müddətdə və əsaslı dönüşə nail olmaq üçün İDP və bütövlükdə ADAU rəhbərliyinə (1) abituriyentlər və onların valideynləri üçün "Açlq qapı" günləri təşkil etmələri, (2) kütləvi informasiya vasitələrindən (televiziya, mətbuat və sosial şəbəkələr) və (3) ADAU-nun veb-səhifəsinin imkanlarından maarifləndirmə və cəlbetmə məqsədi ilə istifadə etmələri tövsiyə olunur. Hələlik bu proqramlar üzrə məzunlar olmasa da, təklif olunan maarifləndirmə işlərində aşağıdakı cəlbedici məqamlardan yararlanmaq olardı:

- ✓ məzunlara ikili diplom verilməsi;
- ✓ tədris prosesi (o cümlədən, praktiki işlər) üçün ADAU-da müasir maddi-texniki bazanın olması;
- ✓ tədris prosesinə EU tərəfindən yüksək ixtisaslı və təcrübəli müəllimlərin cəlb olunması;
- ✓ tələbələrin EU-da təcrübə keçməsi;
- ✓ ADAU-da tələbələr üçün "kampus" prinsipi əsasında müasir, rahat yataqxana kompleksinin olması (məsələn, dərslərə və sahə təcrübələrinə gedib-gəlmək üçün tələbələrin nəqliyyat problemi yoxdur);
- ✓ tədris prosesində yüksək nəticələrə nail olan tələbələr üçün əlavə maddi həvəsləndirmə sisteminin olması;
- ✓ yeni texnologiyalara əsaslanan innovativ təhsil proqramının mənimsənilməsi sayəsində universiteti bitirdikdən sonra məzunların qazandıqları bilik və bacarıqlarına olan tələbat əsasında ölkə iqtisadiyyatının müvafiq sahələri üzrə əmək bazarında iştirakının təmin olunması və bunun üçün tələbələrin tədris aldıqları müddətdə mütəxəssis kimi yetişdirilməsi, məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi, tədris prosesində yüksək nəticələrə nail olan və seçilmiş tələbələrin tədris müddətində dövlət proqramlarına, İDP çərçivəsində mövcud və hazırlanan layihələrə cəlb olunması, təhsil proqramı üzrə məzunlarla davamlı əlaqə sisteminin yaradılması və s.

## 2. Təhsil proqramları üzrə əvvəlki kvalifikasiyaların tanınması

Ege Universiteti ilə ADAU arasında bakalavriat səviyyəsi üzrə "Bitki mühafizəsi", "Aqronomluq", "İqtisadiyyat" və "Aqromühəndislik" ixtisaslarında Beynəlxalq Təhsil Proqramlarının birgə tətbiqinə dair Protokolun 10-cu maddəsinə əsasən, ikili diplom proqramlarının tətbiq olunduğu ixtisasların təhsil proqramları Türkiyənin Ali Təhsil Standartlarına (TYYÇ) uyğun olaraq, Ege Universitetinin bakalavriat səviyyəsindəki ixtisasların təhsil proqramları ilə eynidir (Əlavə-1) və ADAU-nun Təhsil Standartlarından kənara çıxmamaq şərtilə, təhsil proqramlarında yalnız 20%-ə qədər dəyişiklik edilməsinə yol verilir. Həmçinin sözügedən protokolun 6-cı maddəsinə əsasən, müvafiq ixtisasların ikili diplom proqramlarına Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi qəbul imtahanlarında topladıqları ballara uyğun olaraq dövlət sifarişi əsasında yalnız Azərbaycan Respublikası vətəndaşları qəbul ola bilər. Qeyd olunanları nəzərə alaraq, 2020/2021 – 2023/2024-cü tədris illəri ərzində ADAU-EU beynəlxalq İDP çərçivəsində "Bitki mühafizəsi", "Aqronomluq", "İqtisadiyyat" və

“Aqromühəndislik” ixtisasları üzrə Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi qəbul imtahanlarında topladıqları ballara uyğun olaraq qəbul olunmuş tələbələrdən başqa heç bir tələbə qəbul olunmamış və Təhsil proqramı üzrə əvvəlki kvalifikasiyaların tanınmasına ehtiyac yaranmamış, hər hansı kvalifikasiya tanınmadığından bu əsasda tanınmış kvalifikasiyanın təhsil səviyyəsi, əldə olunmuş təlimin həcmi, mövcud olmayan sənədin autentikliyi müəyyənləşdirilməmişdir.

## 3. Təhsil proqramı üzrə tədrisin təşkili

Təhsil proqramları üzrə dərs saatlarının bölgüsü Avropa Kredit Transferi və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğundur. Bütün ixtisaslar üzrə təhsil proqramlarının ümumi tədris yükü, cəmi 240 kredit və hər kredit üçün auditoriyadaxili və auditoriyadan kənar saatların cəmi 30 olmaqla, 4 bloka bölünmüşdür:

(1) ümumi fənlər – 30 kredit;
(2) ixtisas fənləri – 120 kredit;
(3) seçmə fənlər – 60 kredit (ADAU və EU tərəfindən müəyyən edilir);
(4) təcrübə isə karyera planlaması, ictimai xidmət təcrübələri, istehsalat təcrübəsi/layihə - 30 kredit.

İxtisaslaşmanın tədris qrafiki, tədris planlarına müvafiq olmaqla, semestrlər üzrə hazırlanmış və kredit sisteminin tələblərinə uyğundur. Tədris planlarında məcburi və seçmə fənlərin bölgüsü aparılmış, ümumi və ixtisas fənləri arasında balans saxlanılmışdır. Digər tərəfdən, tələbələr arasında keçirilən anonim sorğuların nəticələri ona dəlalət edir ki, seçmə fənlərin müəyyənləşdirilməsində tələbələrin sərbəstliyi (seçim hüququ) tam təmin olunmur. Komissiya seçmə fənlərin seçimi zamanı tələbələrə tam sərbəstlik verilməsini tövsiyə edir.

Tədris proqramının EU tərəfindən müəyyənləşdirilməsi nəzərə alınmaqla, tədris planındakı fənlər mövcud standartlara uyğundur. Tədris proqramları və qrafiki, tədris prosesinin ümumi gedişinə və keyfiyyətinə nəzarət və s. ilə bağlı tələb olunan bütün sənədlər ADAU-nun Tədris şöbəsi, Keyfiyyət Təminatı və Strateji İnkişaf şöbəsi və dekanlıqda mövcuddur.

2020/2021, 2021/2022 və 2022/2023-cü qəbul illəri üzrə İDP tələbələrinə (ADAU və EU-nun icazəsi əsasında) akademik borclarının ləğvi üçün müxtəlif fənlər üzrə 2 yay semestri təşkil olunmuşdur.

Təhsil proqramı üzrə fənlərin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, tədris prosesində tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi, tədris prosesinə nəzarət və onun nəticələrinin qiymətləndirilməsi yalnız Ege Universitetinin ZİDEK Kənd Təsərrüfatı, Meşəçilik və Balıqçılıq Fakültəsinin Təhsil Proqramlarının Akkreditasiyası üçün Ali Təhsil Keyfiyyəti Şurası tərəfindən

verilmiş Keyfiyyətin Qiymətləndirilməsi Qeydiyyatı Sertifikatına sahib olan Türkiyənin Keyfiyyət Təminat Təşkilatının 23 mart 2023-cü il tarixli qərarı ilə Akkreditə olunmuş Proqram Təlim Nəticələrinə əsasən həyata keçirilmişdir. Digər tərəfdən, qeyd olunan əlaqələndirmə, nəzarət, qiymətləndirmə və təkmilləşdirmə ilə bağlı AR ETN-nin mövcud normativ sənədlərinə müvafiq mexanizmlər tətbiq edilmir.

Fənlər üzrə təlim nəticələrinin sillabuslarda əks olunma vəziyyəti qənaətbəxşdir.

Hər bir müəllimin İDP üzrə tədris etdiyi fənlər üzrə mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən illik işçi tədris planı mövcuddur.

Tədris proqramı üzrə sistemləşdirilmiş məsləhət xidməti mövcud deyildir. Lakin Universitet rəhbərliyi ilə keçirilən görüşlər zamanı bu sahədə işlər görüldüyü və təxminən 1 ay əvvəl tələbələrlə iş üzrə proqram katibi vəzifəsi ştat vahidinin yaradıldığı qeyd olunmuşdur. Hazırda məsləhət xidmətini İDP-nin katibi həyata keçirir. Lakin katibin kompetensiyalarının bu vəzifəyə uyğunluğu və 1 nəfərin 4 proqram üzrə məsləhət xidməti göstərməsi Komissiya tərəfindən məqbul hesab edilməmişdir. Bundan başqa, tələbələr müəllimlərdən fərdi qaydada məsləhət alırlar lakin məsləhət saatları formal olaraq mövcud deyil (sillabuslarda qeyd olunmayıb).

Proqram katibi həmçinin gündəlik işlərin koordinasiya edilməsində Proqram direktoruna kömək edir, İDP ilə bağlı iclasların təşkilinə və iclas protokollarının hazırlanmasına görə cavabdehdir. Yuxarıda yazılanları nəzərə alaraq Komissiya məsləhət xidmətinin təkmilləşdirilməsi istiqamətində müvafiq işlərin görülməsini və ayrıca akademik məsləhətçi ştatının yaradılmasını və onun vəzifə öhdəliklərinin müəyyənləşdirilməsini tövsiyə edir.

Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili Elmi Şuranın qərarı ilə EU-nun rektorluğu və Kənd təsərrüfatı fakültəsi tərəfindən müəyyən edilir. İDP üçün özəl olaraq stajkeçmə proqramı mövcuddur. İDP çərçivəsində buraxılış işlərinə rəhbərlik EU Məsləhət Təlimatına uyğun həyata keçirilir.

Komissiya İDP çərçivəsində tədris prosesinin təşkilində ayrı-ayrı ixtisaslar üçün spesifik olan aşağıdakı məqamları qeyd edir.

**“Aqronomluq” ixtisası üzrə**

- “Aqronomluq” ixtisası üzrə tədris planı təhsil proqramına və kredit sisteminin tələblərinə uyğun tərtib edilmiş, 8 semestr (4 il) üzrə tədris olunmalı fənlərin adlarını, kreditlərinin sayını, onların tədrisinə ayrılmış ümumi saatların, o cümlədən auditoriyadan kənar və auditoriya saatlarının (mühazirə, seminar, laboratoriya dərslərinin saatları qeyd olunmaqla) miqdarını, həftəlik dərs yükündə payını, məcburi tədris olunan fənlər və seçmə fənn bloklarına aid fənləri özündə əks etdirir. Tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks

etdirən tədris qrafikləri mövcuddur. Təhsil proqramına müvafiq olaraq, tədris planında məcburi və seçmə fənlərin tam bölgüsü aparılmışdır. Hər bir ixtisas, o cümlədən “Aqronomluq” ixtisası üzrə də tədris olunması nəzərdə tutulan bütün fənlərin fənn proqramlarına və ixtisasa uyğun və demək olar, tədris olunan bütün mövzulara müvafiq təlim nəticələri mövcuddur və onlar ixtisasın müvafiq ümumi və xüsusi kompetensiyaları ilə əlaqələndirilmişdir. Fənlərin təlim nəticələri fənn sillabuslarında öz əksini tapmış və onların ixtisasa müvafiqliyinə nəzarət və qiymətləndirilməsi elektron sistem vasitəsi ilə də mümkündür.

- Bakalavriat səviyyəsində “Aqronomluq” ixtisası üzrə təhsil proqramında tələbənin 5 (beş) günlük dərs rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi dərs yükünün həcmi 45 saat ola bilər; tədris planında tələbənin hər bir semestr üzrə həftəlik dərs yükünün 30 saat müəyyən olunması onun təhsil proqramına müvafiq tərtib olunduğunun göstəricisidir.
- Tələbələrin tədris semestrləri ərzində təhsil alacaqları fənlərin siyahısını, onların müvafiq kreditlərini əks etdirən fərdi tədris planları mövcuddur və onlar təhsil proqramına müvafiqdir. Həmçinin tədris prosesində iştirak edən hər bir müəllimin də cari tədris ilində tədris edəcəyi fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planları mövcuddur.
- Tədris növləri təhsil proqramına uyğun olmaqla reallaşdırılır, laboratoriya işləri, praktik məşğələlər və çöl təcrübələri təhsil proqramına müvafiq keçirilir.
- Hər bir müəllim tərəfindən tələbələrlə tarixi razılaşdırılmaqla tədris olunan fənlər üzrə aralıq və semestr imtahanlarından öncə məsləhət saatları keçirilir.
- 09.08.2021-ci il tarixində imzalanan "Beynəlxalq Təhsil Proqramlarının birgə təşkilinə dair Protokol"a əsasən, İDP çərçivəsində Tədqiqat və Təhsilin Keyfiyyətini Təkmilləşdirmə Fəaliyyəti çərçivəsində bağlanmış Sazişin 7-ci maddəsinin 2-ci bəndinə və “Ege Universiteti və Azərbaycan Dövlət Aqrar Universitetinin Araşdırma və Təhsilin Keyfiyyətinin Təkmilləşdirilməsi Fəaliyyətləri üzrə İnzibati və Maliyyə Sazişinin 6-cı maddəsinin 14-cü bəndinə əsaslanaraq, 01 avqust 2023-cü il tarixdən 02 iyul 2024-cü il tarixinədək 2020/2021-ci tədris ilində sözügedən proqram üzrə “Aqronomluq” ixtisasına qəbul olan və 2022/2023-cü tədris ilində 3-cü kursu bitirən 30 tələbə 4-cü kursda təhsillərini davam etmələri və EU-da stajkeçmələri məqsədi ilə Ege Universitetinə göndəriliblər (22.06.2023-cü il 3-22-23/3-1-686/2023 nömrəli əmr). Stajkeçmədən öncə tələbələrin istəkləri nəzərə alınmaqla buraxılış işi mövzuları və rəhbərləri müəyyənləşdirilmiş, mövzuların aktuallığı təyin olunarkən Azərbaycan və Türkiyə aqrar sektoru üçün aktual məsələlərə yer verilmişdir.
- İDP çərçivəsində “Aqronomluq” (dövlət sifarişli) ixtisası üzrə təhsil alan 1-ci və 2-ci kurs tələbələrinin akademik borclarının ləğvi məqsədilə könüllülük prinsipi ilə ödənişli əsaslarla 2023-cü il iyulun 31-dən avqustun 26-dək yay semestri təşkil edilmiş, avqustun 28-dən sentyabrın 2-dək və sentyabrın 4-dən sentyabrın 5-dək (müvafiq təsdiqedici sənədlər təqdim etməklə ilkin imtahanlarda iştirak etməyən tələbələr üçün) yay semestrinin imtahanları keçirilmişdir. 25 iyul 2023-cü il tarixli, 3-22-23/3-1-903/2023 saylı Əmr əsasında “Aqronomluq” (dövlət sifarişli) ixtisası üzrə akademik borclarının ləğvi üçün 40 tələbə 9 fənn üzrə [Xarici dil - 1 fənni üzrə (2 kredit) - 6 tələbə (1 kurs), Ümumi kimya fənni üzrə (3 kredit) - 2 tələbə (1

kurs), Ekologiya fənni üzrə (2 kredit) - 4 tələbə (1 kurs), Bitki mühafizəsi fənni üzrə (4 kredit) - 5 tələbə (2 kurs), Kənd təsərrüfatının mexanikləşdirilməsi fənni üzrə (3 kredit) - 3 tələbə (2 kurs), (Torpaq bilikləri və bitkilərin qidalanması fənni üzrə (3 kredit) - 3 tələbə (2 kurs), Mühəndis mexanikası fənni üzrə (2 kredit) - 5 tələbə (2 kurs), Genetika fənni üzrə (2 kredit) 7 tələbə (2 kurs), Ağıllı kənd təsərrüfatı fənni üzrə (2 kredit) - 5 tələbə (2 kurs) olmaqla] yay semestrində yerli müəllimlər tərəfindən keçirilən dərslərdə iştirak edərək, akademik borclarını ləğv edə bilmişdir (Əmr № 3-22-23/3-1-1050/2023, 14.09.2023).

- 2020/2021-ci tədris ilində "Aqronomluq" ixtisası üzrə qəbul olan, hazırda təhsillərinin son ilini Türkiyənin Ege Universitetində davam etdirən (Əmr № 3-22-23/3-1-686/2023, 22.06.2023) və müvafiq fənlərdən qeyri-müvəffəq qiymət almış 7 tələbə (Bitki seleksiyasına giriş fənni üzrə (2 kredit) – 1 tələbə, Ekoloji qida istehsalı fənni üzrə (3 kredit) – 6 tələbə) isə iyulun 17-dən 31-dək təşkil edilmiş yay semestrində (Əmr № 3-22-23/3-1-871/2023, 14 iyul 2023) yerli müəllim heyəti tərəfindən tədris edilən dərslərdə iştirak etməklə qeyd olunmuş fənlərdən akademik borclarını ləğv edə bilmişdir (Əmr № 3-22-23/3-1-1050/2023, 14.09.2023).
- Təhsil proqramı üzrə kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikasının təhlili zamanı aydın olmuşdur ki, 2021/2022-ci tədris ilinin payız semestri nəticəsində I kursda təhsil alan 28 tələbədən 3-nün (11%) yalnız 4 akademik borcu, II kursda payız semestrinin imtahan sessiyasında isə bu tələbələrin 13-də (46%-də) 9 fənn üzrə 25 akademik borc yaranmışdır. 2022/2023-cü tədris ilinin payız semestrinin imtahan sessiyasında isə I kursda tədris alan 31 tələbədən 13-nün (42%) 10 fənn üzrə 22 akademik borcu, həmin (2022/2023) tədris ilində yaz semestrinin imtahan sessiyasında isə bu tələbələrin (31) 16-da (52%-də) 10 fənn üzrə 76 akademik borc izlənilir (Əlbəttə, burada vurğulamaq lazımdır ki, "Yabancı dil-I" və "Yabancı dil-II" fənləri, həmçinin Azərbaycan tarixi I və Azərbaycan tarixi II fənləri prerekvizit fənlərdir və bu baxımdan I kursda payız sessiyasında qeyd olunmuş fənlərdən kəsri olan tələbələr yaz semestrində bu fənlərin tədrisində iştirak edə bilməmiş və nəticələri imtahanda iştirak etmədən kəsr kimi qiymətləndirilmişdir.). 2022/2023-cü tədris ilinin payız semestrinin imtahan sessiyasında III kursda təhsilini davam etdirən 30 tələbədən 6-da 8 fəndən yalnız biri üzrə (Organik gida üretimi - Ekoloji qida istehsalı) 6 akademik borc, ümumilikdə isə 7 akademik borc yaranmışdır. Qeyd olunanlar İDP çərçivəsində tədris illəri üzrə tələbələrin akademik borclarının artdığını göstərir. Bu artım eyni tələbələrin müxtəlif dövrlərdə (istər payız, istərsə də yaz semestrlərinin imtahan sessiyaları zamanı) müxtəlif fənlər üzrə yarandığı kredit borclarının miqdarında və ildən-ilə kredit borcu yaranmış tələbələrin sayında müşahidə olunur. Qeyd etmək lazımdır ki, ildən-ilə akademik borcun həcmində müşahidə olunan artım ilə ADAU-EU beynəlxalq İDP üzrə "Aqronomluq" ixtisasına qəbul olan tələbələrin orta bal göstəriciləri arasında əks korrelyativ əlaqə izlənilir.
- Sahə səfəri zamanı Komissiya tələbələrin akademik borclarının yaranmasının səbəbinin əsasən tələbələrin potensialı ilə əlaqələndirildiyini müşahidə etmişdir. Həmçinin Komissiyanın müşahidələrinə əsasən akademik borcları olan tələbələrin bir çoxu eyni tələbələr olmuşdur. Bu səbəblə Komissiya universitetdə həmin tələbələr üçün akademik dəstək xidmətinin

yaradılmasını tövsiyə edir. Bu prosesdə akademik göstəriciləri yüksək olan tələbələrin cəlb olunması da tövsiyə olunur.

- Təhsil proqramı üzrə kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikasında isə əhəmiyyətli dəyişiklik müşahidə olunmur. Beynəlxalq İDP üzrə "Aqronomluq" ixtisasında təhsil alan I kurs tələbələrinin 2022/2023-cü tədris ilinin payız semestrində ən çox kəsri "Yabancı dil I" fənni (13 tələbədə), 2022/2023-cü tədris ilinin yaz semestrində isə "Yabancı dil II" (13 tələbə), "Bitki fizyolojisi" (11 tələbə) və "Genel mikrobiyoloji" (11 tələbə) fənləri üzrə olmuşdur (Şəkil 1). "Yabancı dil II" fənni üzrə yaz semestrində də eyni 13 tələbədə akademik borcun yaranması bu fənnin prerekvizit fənn olmasından qaynaqlanır. Ən çox akademik borclar I kursda "Yabancı dil-I", "Yabancı dil-II", "Genel mikrobiyoloji", "Bitki fizyolojisi", "Ekoloji", "Botanik II" fənləri, II kursda "Genetik", "Mühendislik mekaniği", III kursda isə "Organik gida üretimi" fənni üzrə yaranır (Şəkil 1).




**Şəkil 1.** "Aqronomluq" ixtisası üzrə təhsil alan I kurs tələbələrinin 2022/2023-cü tədris ilinin yaz semestrinin imtahan sessiyasında müxtəlif fənlər üzrə yaranmış akademik borcları

**"Bitki mühafizəsi" ixtisası üzrə**

- 2021-2022-ci tədris ilinin Payız və Yaz semestrində Bitki mühafizəsi ixtisası üzrə 4 tələbənin; 2022-2023-cü tədris ilinin Payız semestrinində isə 57 akademik borc (28 fənn üzərindən); həmin ilin Yaz semestrində isə 52 akademik borc (25 fənn üzərindən) olmuşdur.

- Tədris planlarında nəzərdə tutulmuş fənlərin sayı və həftəlik dərs yükü dərsdənkənar məşğələlərə vaxt ayrılmasına imkan verir: təhsilin bakalavr pilləsi üzrə həftəlik auditoriya saatları tədris planında qeyd olunduğu kimi keçirilir.

- İDP çərçivəsində fənlərin təkrar dinlənilməsinin "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində ADAU və EU arasında 28.08.2021-ci il tarixində imzalanmış bakalavriat səviyyəsi üzrə "Bitki mühafizəsi" ixtisasında Beynəlxalq Təhsil Proqramlarının

birgə tətbiqinə dair protokolun 12 maddəsi ilə tənzimlənməsi müəyyən edilmişdir. Təhsil proqramı üzrə təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması EU-nun "Təlim və tədrisin idarə olunması təlimatı" ilə tənzimlənir.

- Payız semestrinin imtahan sessiyasından sonra ADAU-EU beynəlxalq ikili diplom proqramı çərçivəsində "Bitki mühafizəsi" ixtisası üzrə təhsil alan 3-cü kurs tələbəsi 2022/2023 – cü tədris ilində qeydiyyatdan keçmədiyi və payız semestrinin sonuna qədər universitetlə əlaqə saxlamadığı üçün tələbələr sırasından xaric edilmişdir (7 mart 2023-cü il tarixli 3-22-23/3-1-289/2023 nömrəli əmr).

**<u>"İqtisadiyyat" ixtisası üzrə</u>**

- Fənlər üzrə təlim nəticələrinin sillabuslarda əks olunma vəziyyəti Komissiya tərəfindən qənaətbəxş hesab edilir.
- Komissiya tərəfindən proqram çərçivəsində təhsil alan tələbələrlə təşkil olunan anonim sorğuda tələbələrə ünvanlanan **"Sillabusların məzmunu, tərtibatı və fənn proqramına uyğunluğu sizi qane edirmi?"** sualına sorğuda iştirak edən 82 tələbədən 34 nəfəri (41.5%) **"tam qane edir"**, 36 nəfəri (43.9%) **"qane edir"**, 10 nəfəri (12.2%) **"qismən qane edir"**, 2 nəfəri (2.4%) isə **"qane etmir"** cavabını vermişdir (Şəkil 2). Bu sorğu və tədris planlarına keçirilən baxışlar onu deməyə imkan verir ki, həftəlik dərs yükü (həftəlik 30 saat) tələbələrə dərsdənkənar məşğələlərə kifayət qədər vaxt ayırmağa imkan vermir. Komissiya tərəfindən tələbələrin dərsdənkənar məşğələlərə vaxt ayıra bilmələri üçün tövsiyə olunur ki, ixtisasların tədris planlarında fənlərin auditoriya saatlarının tənzimlənməsinə yenidən baxılsın və hər bir fənnin mənimsənilməsində auditoriyadan kənar saatların miqdarı artırılsın.

Kredit borcu olan tələbələrin sayının tədris illəri üzrə dinamikası artan meylə malikdir. Belə ki, 2021-2022-ci tədris ilində təhsil alan tələbələrin sayı 17 nəfər, akademik borcu yaranan tələbələrin sayı isə 3 nəfər olmuşdur. Beləliklə, həmin tədris ilində kredit borcu olan tələbələr ümumi tələbələrin 17.6%-ni təşkil etmişdir. 2022-2023-cü tədris ilində tələbələrin sayı 40, akademik borcu yaranan tələbələrin sayı isə 20 (50%) olmuşdur. Kredit borcu yaranmış fənlərin ümumi həcmində qeyri-ixtisas fənləri üstünlük təşkil edir. Kredit borcu yaranmış tələbələrin say göstəricisinə görə "Ümumi kimya", "Statistikanın əsasları", "Xarici dil", "Riyaziyyat" kimi fənlər daha qabarıq şəkildə özünü büruzə verir. Xüsusilə də, "Statistikanın əsasları" fənni üzrə kredit borcunun yüksək olması (2022-2023-cü tədris ilində 11) bu problemə xüsusi diqqətin ayrılmalı olduğunu göstərir.




**Şəkil 2.** İDP-də təhsil alan tələbələrlə keçirilmiş anonim sorğunun nəticələri.

**<u>“Aqromühəndislik” ixtisası üzrə</u>**

- Tədris planında həftəlik dərs yükü tələbələrə dərsdənkənar məşğələlərə vaxt ayırmağa imkan verir.
- Tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun olmaqla, hər bir müəllimin tədris etdiyi fənnin (fənlərin) adlarını və kreditlərini, dərslərin növlərini, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədris planını (cədvəlini) və fənn üzrə tələbələrin sayını özündə əks etdirən illik işçi tədris planı mövcuddur.
- Təhsil proqramı üzrə tələbələrin ayrı-ayrı tədris illəri üzrə fərdi tədris planı hazırlanmışdır.
- Komissiyaya təqdim olunan müvafiq sənədlərin (o cümlədən, təcrübə keçmək üçün tələbələrlə bağlanılan müqavilələrin) təhlili, tələbələrlə söhbətlər, kurs layihə işlərinə və referatlara baxış ona dəlalət edir ki, təhsil proqramına uyğun olmaqla, tədris prosesində iştirak edən müəllimlərin rəhbərliyi altında tələbələrin sərbəst işlərini hazırlamaları, tədris çöl, istehsalat və diplomqabağı işlərin, imtahan sessiyalarının təşkili qənaətbəxşdir.
- 2021-2022-ci tədris ilinin Payız və Yaz semestrində Aqromühəndislik ixtisası üzrə 5 tələbənin; 2022-2023-cü tədris ilinin Payız semestrinində isə 12 tələbənin; həmin ilin Yaz semestrində isə 24 tələbənin kəsirləri olmuşdur.
- Kredit borcu olan tələbələrin sayında tədris illəri üzrə azalma qeydə alınmışdır. Belə ki, 2021-2022-ci tədris ilində təhsil alan tələbələrin sayı 29 nəfər, akademik borcu yaranan tələbələrin sayı isə 5 nəfər olmuşdur - beləliklə, həmin tədris ilində kredit borcu olan tələbələr ümumi tələbələrin 8.47%-ni təşkil etmişdir. 2022-2023-cü tədris ilinin payız semestrində tələbələrin sayı 59, akademik borcların sayı isə 60 (18 fənn üzərindən) olmuşdur. 2022-2023-cü tədris

ilinin yaz semestrində tələbələrin sayı 59, akademik borcların sayı isə 58 (17 fənn üzərindən) olmuşdur. Kredit borcu yaranmış fənlər içərisində qeyri-ixtisas fənləri üstünlük təşkil edir. Kredit borcu yaranmış tələbələrin say göstəricisinə görə "Xarici dil - I" ("Yabancı dil - I"), "Riyaziyyat I" ("Matematik I"), "Heyvanların yetişdirilməsi və qidalanması" ("Hayvan yetiştirme ve besleme"), "Statik və güc" ("Statik ve mukavemet") kimi fənlər üstünlük təşkil edir. Xüsusilə, "Statik və güc" ("Statik ve mukavemet") fənni üzrə kredit borcunun yüksək olması (2022-2023-cü tədris ilində 15 tələbə) bu problemin həllinə xüsusi diqqətin ayrılmalı olduğunu tələb edir.

- ADAU-nun Aqromühəndislik fakültəsinin Ege Universitetinin müvafiq sahələr üzrə təcrübəsinin öyrənməsi qismən aparılır, mövcud təcrübənin gələcəkdə tətbiqi ilə bağlı müəyyən təsdiq olunmuş strategiya mövcud deyil. Həmçinin fakültənin ikili diplom proqramından yararlanaraq fənn proqramlarının, sillabus və s. hazırlanmasında istifadə olunması qeydə alınmamışdır.

## 4. Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları

İDP çərçivəsində təhsil proqramları üzrə tədris metodları yalnız əyani formada qəbul planı olduğu üçün tədris metodlarının ancaq əyani formada tətbiq olunması müəyyən edilmişdir. Təhsil proqramı üzrə təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti EU ZİDEK Kənd Təsərrüfatı, Meşəçilik və Balıqçılıq Fakültəsinin Təhsil Proqramlarının Akkreditasiyası üçün Ali Təhsil Keyfiyyəti Şurası tərəfindən verilmiş Keyfiyyətin Qiymətləndirilməsi Qeydiyyatı Sertifikatına sahib olan Türkiyənin Keyfiyyət Təminat Təşkilatının 23 mart 2023-cü il tarixli qərarı ilə Akkreditə olunmuş meyarlara əsasən izlənilməsi və təkmilləşdirilməsi mexanizmi ilə tənzimlənir.

Komissiya üzvləri İDP üzrə dərslərdə iştirak, müəllim və tələbələrlə görüş, tədris proqramlarının təhlili zamanı müşahidə (aşkar) etmişdirlər:

(1) İDP üzrə tədris metodları seçilərkən dərsin məqsədi, mövzunun quruluşu, auditoriyanın xüsusiyyəti, təhsilalanları maraqları və ehtiyacları nəzərə alınır;
(2) təhsil proqramı üzrə tələb olunan təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı, interaktiv metod və texnologiyalardan istifadə olunur;
(3) tələbə yönümlü, problem yönümlü, səriştə əsaslı, nəzəriyyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə səviyyəsi qənaətbəxşdir;
(4) tətbiq edilən tədris metodlarında maraqlandırma, motivasiya olunma, dərindən öyrənmə və öhdəlik götürmə yanaşmalarından istifadə qənaətbəxşdir;
(5) tədris səviyyələrinə və tələbələrin fərdi xüsusiyyətlərinə uyğunlaşdırılmış tədris metodları və üsullarının tətbiqinin səviyyəsi qənaətbəxşdir;
(6) müxtəlif fənlərin tədrisində mühazirə və praktik məşğələ dərslərində AR üçün aktual olan müvafiq problemlər, demək olar ki, nəzərə alınmır;
(7) ADAU-nun dekanlıq və kafedralarının, "yerli" müəllimlərin EU təcrübəsini öyrənməsi və tədris prosesində istifadə etməsi ilə ümumi (bütün ixtisaslar üzrə) vəziyyət qənaətbəxş

deyildir. EU müəllimlərinin təcrübəsindən daha səmərəli yararlanmaq olar. Komissiya belə hesab edir ki, ADAU rəhbərliyi bu istiqamətdə təxirəsalınmaz müəyyən addımlar atmalıdır. O cümlədən: (a) yerli gənc müəllimlərin EU müəllimlərinin tədris proqramlarının, mühazirə və məşğələ materiallarının hazırlanması və istifadəsi sahəsində təcrübəsini məqsədyönlü və müntəzəm şəkildə öyrənməli, gənc kadrlar, doktorant və magistrantlar EU tədris sisteminə mütləq inteqrasiya olunmalıdır; (b) müntəzəm surətdə ADAU-nun perspektivli gənc müəllim və məzunlarının EU-da doktorantura təhsili və təcrübə keçmələri təşkil olunmalıdır; (c) ADAU-nun müvafiq dekanlıq və kafedraları EU təcrübəsini öyrənməli və ADAU şəraitinə, İDP şərtlərinə müvafiq olanları tədris planları, fənn proqramları və sillabusların yenilənməsi zamanı tətbiq etməlidirlər; (ç) İDP çərçivəsində növbəti illər üzrə "Aqronomluq", "Bitki mühafizəsi", "İqtisadiyyat" və "Aqromühəndislik" ixtisasları üzrə Beynəlxalq Təhsil Proqramlarının birgə tətbiqi zamanı tədris planları tərtib olunarkən Azərbaycanda ümumi təhsil pilləsinin dövlət standartı, proqramları nəzərə alınmalı, həmçinin mütəxəssislər tərəfindən ali təhsilin bakalavr səviyyəsində uyğun ixtisaslar üzrə tərtib olunmuş tədris planları müqayisə olunmaqla müvafiq dəyişikliklər edilməlidir; (d) Müxtəlif fənlərin tədrisində istifadə olunan mühazirə materialları və praktik məşğələ dərslərində AR üçün aktual olan problemlər nəzərə alınmalıdır.

(8) Təhsil proqramı üzrə tədris metod və üsullarının dövrü olaraq monitorinqi aparılsa da, (1) yerli müəllimlərin dərslərinin monitorinq sisteminin təkmilləşdirilməsinə və (2) əcnəbi müəllimlərin bilik və bacarıqlarının bəzi yerli müəllimlər tərəfindən mənimsənilməsinə, onların tədris zamanı tətbiq etdikləri ənənəvi tədris üsullarının interaktiv, motivasiyaedici tədris üsulları ilə əvəz olunmasına ehtiyac duyulur.

(9) Universitetdə daxili monitorinq sisteminin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə mütəmadi keçiriləcək monitorinqlərə universitetdən kənar mütəxəssislərin cəlb olunması tövsiyə olunur.

Komissiya İDP çərçivəsində tədris prosesinin təşkilində ayrı-ayrı ixtisaslar üçün spesifik olan aşağıdakı məqamları qeyd edir.

**"Aqronomluq" ixtisası üzrə**

- Təlim prosesində fərqli tədris metodlarından istifadə olunur.
- EU-nin bütün müəllimləri mühazirələrində müvafiq innovativ və informativ təqdimatlara əsaslanır. Hər bir mövzunun izahında əvvəlki dərsdə tədris olunmuş mövzu ilə əlaqə yaradılır, şərh olunan problem yönümlü məsələlərin aktuallığı əsaslandırılır, həlli yolları və praktiki əhəmiyyətliliyi, təlim nəticələri izah edilir, mövzu ətrafında açıq suallar əsasında müzakirələrə yol verilir.
- Seminar məşğələlərində, tədris olunan fənnin spesifikliyindən asılı olaraq, fərdi sorğulardan, müzakirə və debatlardan, müəyyən mövzuların tələbələr tərəfindən müstəqil araşdırılması və təqdimatlarından, problem yönümlü praktiki tapşırıqların, qrup halında sahə tapşırıqlarının yerinə yetirilməsindən istifadə olunur.

- Laboratoriya təcrübələri kiçik qruplara ayrılmaqla yerinə yetirilir və aparılmış təcrübələrin hansı sahələrdə tətbiqinin mümkünlüyünü müəyyənləşdirməyə, mahiyyətinin, ardıcıllığının mənimsənilməsinə xidmət edir və sonda əldə olunan nəticələrin tələbələr tərəfindən şərh olunması tələb olunur.
- Əksər dərslərin tədrisi müəllimlər tərəfindən tələbələrin dərsə dərindən maraq göstərməsinə və motivasiya olunmalarına xidmət edir. Həmçinin bəzi tələbələrin fərdi xüsusiyyətlərindən asılı olaraq, müəllimlər tərəfindən uyğunlaşdırılmış tədris metodlarının tətbiqinə də yol verilir.
- Aralıq və semestr imtahanlarında tələbə biliyi proqram üzrə tərtib olunmuş yazılı tapşırıqların və test tapşırıqlarının həlli əsasında qiymətləndirilir.
- Müəllimlərin tələbəyönümlü, problem yönümlü, interaktiv, səriştə əsaslı və praktiki tətbiqə əsaslanan tədris üsullarından istifadə etməsi sahə səfərləri zamanı əcnəbi müəllimlərin dərslərinin dinlənilməsi zamanı müşahidə olunmaqla yanaşı, tələbələrlə keçirilmiş görüşlər zamanı aparılmış sorğular və tələbə məmnunluğunu qiymətləndirən yazılı sorğunun nəticələri ilə də təsdiqlənir (Şəkil 3).
- Tələbələrin yazılı sorğusu (1) İDP çərçivəsində tədris olunan dərslərin faydalılıq götəricisinin, sahə təcrübələrinin faydalılıq göstəricisinin və tələbələrin universitetdəki tədrisin keyfiyyətindən məmnunluq göstəricisinin yüksək olmasına, (2) müəllimlər tərəfindən tədqiqatlara/elmi konfranslara/seminarlara cəlb olunduqlarına görə, universiteti bitirdikdən sonra əmək bazarının tələblərini qarşılaya biləcəklərindən məmnunluq göstəricisinin yüksək səviyyədə olmasına dəlalət edir.

**“Bitki mühafizəsi” ixtisası üzrə**

- Təhsil proqramı üzrə tədris prosesində aktiv öyrənməni təşviq edən texnoloji imkanlar vardır, lakin onların  müasir yanaşmalarla genişləndirilməsinə ehtiyac duyulur.

- Bitki mühafizəsi ixtisasında tədris prosesinin təşkili həm ənənəvi mühazirə, seminar, həm də innovativ və interaktiv təlim üsullarının tətbiq edildiyi aşkar edilmişdir. Xarici müəllimlər tərəfindən interaktiv mühazirələr, praktik və seminar məşğələləri, laboratoriya işləri, tədris sahə təcrübələri, elmi-tədqiqat işləri və sərbəst işlərin aparıldığı müəyyənləşdirilmişdir.

- Bitki mühafizəsi ixtisasında nəzəri fənlərin tədrisində ənənəvi mühazirə və seminar yanaşması tətbiq olunmuşdur. Fənlərin xüsusiyyətindən asılı olaraq maddi-texniki bazasının imkan verdiyi səviyyədə praktikiləşdirildiyini söyləmək mümkündür.

- Bitki mühafizəsi ixtisasında tədris tələbəyönümlü, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktik tətbiqə əsaslanan tədris  yanaşmalarından istifadə edildiyi qeyd olunmuşdur. Mühazirə dərsləri xaricində seminar və lobaroyoriya dərslərin kiçik qruplar şəklində təşkil olunur.

**“İqtisadiyyat” ixtisası üzrə**

- EU Kənd təsərrüfatı fakültəsi Türkiyə Respublikasının “Kənd təsərrüfatı fakültələrinin tədris proqramlarının Qiymətləndirmə və Akkreditasiya dərnəyinin (ZİDEK) 13.03.2023 tarixli ZD-EÜZF-TELP-00151 saylı qərarı ilə akkreditasiya olunmuşdur. EGE Universitetinin “Kənd təsərrüfatının iqtisadiyyatı” fakültəsində tətbiq olunan tədris planları ZİDEK akkreditasiyası təsdiq olunmuşdur. ZİDEK tərəfindən verilən sertifikat 30.09.2025-ci il tarixinə qədər etibarlıdır. İDP-nin “İqtisadiyyat” ixtisasına tələbələr DİM imtahanları (II-qrup üzrə) vasitəsilə qəbul olunurlar. **Bu səbəbdən onlarda fizika və kimya fənlərinin qavranılması ilə bağlı çətinliklər yaranır.** Bu çətinliyə baxmayaraq, tətbiq edilən öyrətmə metodları, müəllimlərin ixtisas biliyinin yetərli olması, mövzuya hakimliyi və ciddi tədris intizamını təmin etməsi İDP çərçivəsində tətbiq olunan tədris metodları və üsullarının düzgün seçildiyinə dəlalət edir. Aşkar olunmuşdur ki, mühazirələri dinləyərkən tələbələrin məmnunluq səviyyəsi yüksəkdir. Xüsusilə iqtisadiyyat ixtisası üzrə təhsil alan birinci kurs tələbələri İDP-də təhsil aldıqları üçün məmnundurlar.
- Tədris metodları və üsullarının monitorinqi bu məqsədlə yaradılmış xüsusi komissiya tərəfindən həyata keçirilir.
- Həmçinin qeyd edək ki, Akkreditasiya Komissiyası tərəfindən tələbələrlə keçirilmiş anonim sorğuda iştirak edən 82 tələbədən 51-i (sorğuda iştirak edənlərin 62%-i) *“Müəllimlər tələbəyönümlü, problem yönümlü, səriştə əsaslı və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə edirmi?”* sualına *“bəli, hamısı edir”* cavabını vermişdir (Şəkil 3).




**Şəkil 3.** İDP çərçivəsində “İqtisadiyyat” ixtisası üzrə təhsil alan tələbələrlə keçirilmiş “Müəllimlər tələbəyönümlü, problem yönümlü, səriştə əsaslı və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə edirmi” sualı üzrə anonim sorğunun nəticəsinin sxematik təsviri

- “*Dərslər, əsasən, hansı tədris metodları vasitəsilə həyata keçirilir?”* sualına isə 82 tələbədən 14-ü (17.1%)*“ənənəvi”*, 33-ü (40.2%) *“təqdimatlar əsasında”*, 21-i (25.6%) *“interaktiv formada”*, qalan 14-ü (17.1%) isə *“digər”* cavabını vermişdir (Şəkil 4).




**Şəkil 4.** İDP çərçivəsində “İqtisadiyyat” ixtisası üzrə təhsil alan tələbələrlə keçirilmiş *“Dərslər, əsasən, hansı tədris metodları vasitəsilə həyata keçirilir?”* sualı üzrə anonim sorğunun nəticəsinin sxematik təsviri

**“Aqromühəndislik” ixtisası üzrə**

- Təhsil proqramı üzrə tədris prosesində aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalardan istifadənin vəziyyəti qənaətbəxşdir, lakin bu istiqamətdə təkmilləşməyə ehtiyac vardır.

- Yeni təlim və tədris metodlarında interaktiv öyrənmənin təşviq edilməsi ilə bağlı vəziyyət qənaətbəxşdir, lakin bu istiqamətdə də təkmilləşməyə ehtiyac duyulur xüsusilə də azərbaycanlı professor-müəllim heyəti tərəfindən tədris olunan dərslərdə.

- Tələbələrin elektron sistemdə yerləşdirilmiş göstəricilərinin təhlili ona dəlalət edir ki, təhsil proqramı üzrə təhsil metod və üsullarının dövrü olaraq monitorinqi qənaətbəxş səviyyədədir.

- Komissiya tərəfindən Proqram çərçivəsində təhsil alan tələbələrlə auditroriyada keçirilmiş görüşdə onlara ünvanlanmış *“Sillabusların məzmunu, tərtibatı və fənn proqramına uyğunluğu, tədris olunan fənlərin keyfiyyəti sizi qane edirmi?”* sualına sorğuda iştirak edən 30 tələbədən hamısı (100%) *“tam qane edir”* cavabını vermişdir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 1000 sözü keçməməsi məqsədəuyğundur.)

## 5. Tədris proqramı üzrə istifadə olunan təlim və tədris resursları

ADAU-da inzibati, akademik heyət və tələbələr üçün zəruri auditoriya, otaq, laboratoriya, kitabxana fondunun mövcud vəziyyətinin qiymətləndirilməsi və onların tədris planına müvafiqliyinin monitorinqi zamanı aşağıdakılar məlum olmuşdur.

- ✓ 2 saylı yataqxananın A korpusu ilə yanaşı, Universitetin Yeni Tədris korpusunda 7 otaq (436, 437, 438, 439, 451, 452, 453 nömrəli) hazırda İDP çərçivəsində inzibati heyətin (1 otaq) və Türkiyədən dəvət olunmuş akademik heyətin (6 otaq) istifadəsindədir. 2021-ci ildə bu fond yalnız 1 otaqdan ibarət olmuşdur, yəni həmin otaq fondunun inkişaf dinamikasında artım vardır.
- ✓ ADAU-nun Yeni Tədris korpusunda, hər birində 15 kompüter olmaqla, 2 kompüter laboratoriyası (otaq 331, 371) və Oxu Zalı (6 kompüter), Mühəndislik korpusunda 1 kompüter laboratoriyası (16 kompüter, otaq 336), həmçinin 1 və 2 saylı yataqxanalarda hər birində 30 kompüter olan 2 kitabxana, İDP çərçivəsində “Aqronomluq”, “Bitki mühafizəsi”, “İqtisadiyyat” və “Aqromühəndislik” ixtisasları üzrə təhsil alan tələbələrin istifadəsindədir. Yeni tədris korpusunda müxtəlif elektron resurslara çıxış orta sürəti 60 Mbit olan internet şəbəkəsi vasitəsilə həyata keçirilir.
- ✓ İDP üzrə təhsil alan tələbələr üçün universitetin yeni tədris korpusunda 6 tədris laboratoriyası (otaq 113, 114, 115, 116, 117, 215), 1 Aqropark (Aqromühəndislik ixtisası), Mühəndislik korpusunda JOHN DEERE adına virtual təlim mərkəzi fəaliyyət göstərir; həmçinin 3 auditoriya (otaq 423, 46 nəfərlik; otaq 424, 48 nəfərlik) və otaq 427, 34 nəfərlik) daimi və 15 auditoriya digər fakültələr ilə birgə istifadə üçün ayrılmışdır. Təhsil proqramı üzrə auditoriya fondu tələbə sayına uyğundur (1 tələbə üçün 4.7 $m^2$).
- ✓ Qeyd olunan təqdirəlayiq məqamlarla yanaşı, müasir səviyyədə təlim prosesi üçün texniki təchizatın davamlı təkmilləşdirilməsi məqsədəuyğun olardı. Belə ki, auditoriyalarda tədris prosesində istifadə olunan daşınan kompüter və proyektorların stasionar formalarla əvəz olunması, geniş həcmli auditoriyaların ağıllı lövhələrlə təchizi arzuolunandır.
- ✓ Tədris laboratoriyalarına baxış zamanı aşkar olunmuşdur ki, onlar müvafiq tədris standartlarına cavab verir, lakin bu sahədə mövcud maddi-texniki baza müasir standartlar baxımından qismən qənaətbəxşdir. Belə ki, laboratoriyaların fəaliyyətində istismarı optimallaşdırılmış bəzi müasir avadanlıqlara ehtiyac duyulur. Məsələn, hazırda “Bitki mühafizəsi” ixtisası üzrə molekulyar səviyyədə tədqiqatların aparılması qeyri-mümkündür: kimyəvi reagentlərə böyük ehiyac vardır. Lakin tədris laboratoriyalarının maddi-texniki təminatı ilə bağlı aşkar olunmuş çatışmazlıqlara baxmayaraq, akademik heyət tərəfindən mövcud şəraitlərdə tədris planına uyğun laboratoriya dərslərinin təşkilinə, tələbələr tərəfindən nəzərdə tutulmuş istiqamətlərdə bilik və bacarıqlarının əldə olunmasına böyük diqqət yetirilir.

- ✓ Kitabxana resurslarına baxış zamanı təhsil proqramı üzrə kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitlərinin say dinamikasında artım müşahidə olunmuşdur. Belə ki, 11.11.2021-ci il tarixli hesab faktura əsasında kitabxana fonduna 2.560 (iki min beş yüz altmış) manat məbləğində 7 adda 59 kitab daxil edilmiş, növbəti ildə bu siyahıya 10.07.2022-ci il tarixli 786469 nömrəli qaimə ilə 3000.74 (üçi min manat yetmiş dörd qəpik) manat məbləğində 7 adda 69 kitab əlavə olunmuş, 2023-cü tədris ilinin sonunadək isə 37540 manat məbləğində 51 adda kitabın alınması ilə mövcud kitabxana fondunun zənginləşdirilməsi nəzərdə tutulmuşdur. Qeyd etmək lazımdır ki, əldə olunmuş dərslik və dərs vəsaitləri EU ilə ADAU arasında bakalavriat səviyyəsində "Bitki mühafizəsi", "Aqronomluq", "İqtisadiyyat" və "Aqromühəndislik" ixtisasları üzrə Beynəlxalq Təhsil Proqramlarının birgə tətbiqi zamanı istifadəsi nəzərdə tutulmuş dərslik və dərs vəsaitlərinə aid olub, həm dünya alimlərinin qeyd olunmuş ixtisaslar üzrə tədrisdə geniş istifadəsi olan və türk dilinə tərcümə olunmuş, son beş ildə dərc olunmuş, müasir məlumatları əhatə edən kitablar, həm də Türkiyə alimlərinin müəllifliyi ilə dərc olunmuş qiymətli kitablardır.
- ✓ EU ilə ADAU arasında İDP çərçivəsində əməkdaşlıq zamanı bakalavriat səviyyəsində Beynəlxalq Təhsil Proqramlarının birgə tətbiqi ilə yanaşı elmi-tədqiqat sahəsində də ikili əməkdaşlıq aparılmış, hər iki Universitetin əməkdaşlarının birgə fəaliyyəti ilə müxtəlif istiqamətli müasir tədqiqatlara başlanılmış və bu tədqiqatlar zəminində 2022-2023-cü tədris illərində beş konfrans materialı müxtəlif ölkələrdə keçirilmiş beynəlxalq konfranslarda [*Proceeding of the 8th International Conference on Control and Optimization with Industrial Applications (August 24-26, 2022, Baku, Azerbaijan); Proceeding of Avrasya 7th International Conference on Applied Sciences (March 10-12, 2023, Budapest-Hungary); International Euroasia Congress on Scientific Researches and Recent Trends 11 (June 22-23, 2023, Goreme Municipality -Cappadocia, Nevşehir); Africa 2nd International Conference on New Horizons in Sciences (June 28-30, 2023, Cairo-Egypt); Proceeding of Karadeniz 13th International Conference on Applied Sciences (July 21-24, 2023, St. Petersburg-Russia)*] təqdim olunmuşdur. Həmçinin 2022-2023-cü tədris illərində ikili əməkdaşlığın nəticəsi olaraq, 14 məqalə nəşr olunmuşdur ki, onlardan 12-si *Web of Science* beynəlxalq xülasələndirmə və indeksləmə sisteminə (bazasına) daxil olan jurnallarda: *Scientific Papers Series "Management Economic Engineering in Agriculture and Rural Development", Industrial Crops & Products (Q1), International Journal of Acarology (Q2), Journal of Agriculture Faculty of Ege University (Q1)* Turkish *Journal of* Field Crops (*Q4)*, *Journal of Information Security and Applications (IF=5.6*) kimi jurnallarda, digər ikisi isə *MAS Journal of Applied Sciences* və *Research in: Agricultural & Veterinary Sciences* adlı beynəlxalq jurnallarda dərc olunmuşdur.
- ✓ EU ilə ADAU arasında ikili elmi əməkdaşlıq çərçivəsində 3 layihə təklifi müxtəlif qrant müsabiqələri üçün işlənilmiş, onlardan ikisi *("Multifunctional and ECO-friendly green synthesized Titanium dioxide NANOparticles for enhanced growth and protection against pathogens in essential AGROnomic crops"* və *"A solution approach to the control of Colorado beetle (Leptinotarsa decemlineata) in Azerbaijan and Türkiye with endophytic bacteria and*

*acibenzolar s methyl"* adlı) Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurası (TÜBİTAK) arasında imzalanmış Əməkdaşlıq Sazişi üzrə Müştərək Proqram (TUBİTAK-ANAS) çərçivəsində Azərbaycan və Türkiyənin universitetləri, tədqiqat mərkəzləri və elmi müəssisələrinin alimləri üçün layihə müsabiqəsinə təqdim olunmuş, biri isə "Horizon Avropa" Proqramının 2023-2024-cü illər üzrə çağırışları üçün nəzərdə tutulmuş layihə təklifidir.

- ✓ 2021-2023-cü tədris illərində müxtəlif müddətlərdə çoxlu sayda qısa və nisbətən uzunmüddətli nəzəri və praktiki təlimlər və seminarlar (Ege Universiteti əməkdaşlarının hər biri ADAU-da olduğu müddətdə ən azı bir elmi seminar keçirmişdir) təşkil olunmuşdur. Keçirilmiş təlim və seminarların keçirilmə tarixi Universitetin saytında əvvəlcədən yerləşdirilməklə ictimaiyyətə bildirilsə də, belə görüşlərdə gənc akademik heyətin iştirakının mütəmadiliyinin təmin edilməsi tövsiyə olunur.
- ✓ EU ilə ADAU arasında İDP çərçivəsində tələbələrdə elmi tədqiqatlara marağı artırmaq, sərbəst və komanda halında tədqiqat aparmaq bacarıqlarını inkişaf etdirmək məqsədi ilə 2022-2023-cü tədris ilində yerli və əcnəbi professor-müəllim heyətinin və istedadlı tələbələrin elmi araşdırmalarda birgə iştirakını nəzərdə tutan kiçik (1-4 tələbə olmaqla) elmi-tədqiqat qrupları yaradılmış və onlarla "Dijital Tarımsal Danışmanlık Tasarımı", "Küçük Çiftçiler için Doğa Dostu Ceviz Hasadı Tasarımı", "Pamukta kuraklı stresi ve kök adaptasyonu", "Güneş Enerjisi İle Saman Kurutma Makinesi Tasarımı", "Azerbaycan'daki Coğrafi İşaretli Ürünlerin Tanıtılması Tasarım" adlı elmi araşdırma proqramları icra olunmuşdur. Onlar sırasında ADAU-EGE beynəlxalq İDP üzrə II kurs "İqtisadiyyat" ixtisasının tələbəsi "Let's play Mangala" - Tarixi Manqala oyunun təbliği layihəsi ilə Azərbaycan Respublikası Gənclər Fondunun gənc nəslin fiziki, intellektual və mənəvi inkişafının təmin edilməsi, vətənpərvərlik ruhunda tərbiyə olunması, ictimai fəallığının artırılması, eləcə də innovativ ideyalarının və yaradıcı təşəbbüslərinin dəstəklənməsi məqsədilə 7-27 iyul 2022-ci il tarixlərində keçirdiyi "İdeyanı Reallaşdır 2022" Gənclərin Fərdi Layihələri üzrə Qrant Müsabiqəsinin qalibi olmuşdur.

2021-2023-cü tədris illərində İDP çərçivəsində təhsil proqramı üzrə sağlamlıq imkanları məhdud şəxslər tədrisə cəlb olunmamışlar. Lakin mövcud tədris resurslarının araşdırılması nəticəsində sağlamlıq imkanları məhdud şəxslər üçün uyğun tədris resurslarının, demək olar ki, yoxluğu qənaətinə gəlinmişdir. Qeyd olunların əksinə olaraq, tədrisə cəlb olunmuş sağlamlıq imkanları normal bütün tələbələr üçün isə təhsil proqramı üzrə təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi və bu prosesə monitorinq sisteminin mövcudluğu müəyyən edilmişdir. Belə ki, sağlamlıq imkanları normal bütün tələbələr üçün təhsil proqramı üzrə tədrisin sinxron və həmçinin asinxron tam mənimsənilməsinə xidmət edən, tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sistemi mövcuddur. Bu elektron idarəetmə sistemində təhsil proqramı üzrə tələbənin təlim prosesində iştirakını və aktivliyini qiymətləndirməyə imkan verən tam funksional elektron tədris platforması və jurnallar mövcuddur. Bu sistem həm də tələbələrin istənilən müddətdə distant təhsilə qoşulmasına, EU müəllimləri ilə tələbələr arasında aktiv onlayn koordinasiyaya xidmət edir və təhsilalanlar üçün təhsil proqramı üzrə təlim və tədris

resurslarını əlçatan edir. Sistem üzərindən tədris olunan bütün fənlər üzrə təlim və tədris resurslarının təhsil proqramlarına kəmiyyət və keyfiyyət uyğunluğunun monitorinqi reallaşdırılır, həmçinin hər bir müəllim tərəfindən dərslərdən öncə təlim və tədris resurslarına baxış keçirilir və müvafiq yeniliklər mütamadi şəkildə təlim və tədris resurslarında öz əksini tapır. Tələbələr https://ege.edu.tr/ elektron səhifəsi üzərindən müəllimlərin sistemdə yerləşdirdikləri sillabus, mühazirə mətnləri, təqdimatlar, tədris kursu üzrə tövsiyə etdikləri ədəbiyyatın elektron nüsxələrini əldə etməklə yanaşı, həm də EU-nun elektron kitabxanasına daxil olmaqla, oradakı zəngin ədəbiyyatdan istifadə edə bilərlər.

## 6. Tədris proqramı üzrə tələb olunan təhsil infrastrukturu və maddi-texniki baza

Akkreditasiya komissiyası tərəfindən aparılmış sahə baxışı və sənədlərlə tanışlıq zamanı müəyyən olunmuşdur ki, ADAU-nun təqdim etdiyi Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, ADAU-da müvafiq ixtisaslara uyğun olaraq, 29.09.2021-ci il tarixində imzalanmış “Araşdırma və Təhsilin Keyfiyyətinin Təkmilləşdirilməsi Fəaliyyətləri üzrə İnzibati və Maliyə Sazişi”nə əsasən, müəllim və təhsilalanlar üçün yaşayış, ofis, təlim-tədris auditoriyaları, kitabxana və tədris laboratoriyalarından istifadə imkanları yaradılmışdır. 3 auditoriya daimi olaraq İDP çərçivəsində təhsilalanların istifadəsinə verilmişdir. Tədris prosesində 9 auditoriya və 4 laboratoriyadan (Bitkilərin kimyəvi analizi, Bitkilərin kimyəvi mühafizəsi, Bitkilərin diaqnostikası, Entomologiya və Fitopatologiya laboratoriyaları) isə universitetin fakültələri ilə razılaşdırılmış şəkildə birgə istifadə olunur. Proqram tələbələri üçün ayrılmış tədris otaqları minimum 35, maksimum isə 46 nəfərlikdir (Qeyd: Proqram üzrə tələbə qəbulu kvotası 30-dur). Digər tərəfdən, təhsil proqramı üzrə tədris laboratoriyalarının təminatında bəzi ləvazimatların çatışmazlığı (kimyəvi reagentlərin yetərsizliyi, avtoklav aparatının işlək vəziyyətdə olmaması, avadanlıqların mütəmadi texniki baxışdan keçirilməməsi və s.) aşkar edilmişdir.

Proqrama ayrılmış tədris auditoriyaları müvafiq təlim resursları və istehsalat-təcrübə bazası ilə təmin olunmuşdur və onlar həm təhsilverənlər, həm də təhsilalanlar üçün əlçatandır.

Təhsil proqramı üzrə distant təhsil infrastrukturunun yaradılması üçün imkanlar mövcuddur (kompüter laboratoriyaları, internet təminatı və s.).

ADAU-nun infrastrukturu və müvafiq təhsil proqramı, hazırda proqram üzrə sağlamlıq imkanları məhdud şəxslərin yoxluğuna baxmayaraq, onların da tədrisə cəlb olunmasına imkan verir; belə ki, Universitetdə sağlamlıq imkanları məhdud şəxslər üçün də uyğunlaşdırılmış tədris infrastrukturu (panduslar, lift və s. ) mövcuddur.

ADAU və İDP rəhbərliyi tərəfindən tədris ilinin başlanğıcında tədris infrastrukturundan istifadənin monitorinqinin aparıldığı bildirilsə də, bu monitorinqin nəticələri rəsmi hesabat formasında sənədləşdirilməmişdir.

## 7. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi

ADAU-da ali təhsilin bakalavriat səviyyəsində təhsilin keyfiyyətinin yüksəldilməsi, təhsilalanların akademik nailiyyətlərinin qiymətləndirilməsində müasir metodların tətbiqi mümkünlüyünü nəzərə alaraq, universitetin Metodik Şurasının 03 mart 2022-ci il tarixli iclasının qərarı ilə (03 saylı protokol) tövsiyə edilmiş və ADAU Elmi Şurasının 30 mart 2022-ci il tarixli iclasının qərarı ilə təsdiq olunmuş pilot layihə kimi "Aqronomluq" və "Mühasibat uçotu" ixtisaslarında tətbiq olunmuş yeni qiymətləndirmə modeli 2023/24-cü tədris ilindən əyani təhsilalma forması üzrə digər ixtisaslara tətbiq olunur (Əmr № 3-22-23/3-1-1172/2023, 28.09.2023). Bu Əmrə əsasən, tələbələrin dərsə davamiyyətinə görə 10 bal və sərbəst işinə görə təyin edilən 10 balın hesablanması dayandırılır və həmin qiymətləndirmə aralıq imtahanla əvəz olunur. Bu qayda İDP üzrə tədrisdə iştirak edən yerli professor-müəllim heyəti üçün keçərli sayılır. Lakin (1) Proqram çərçivəsində bilik və bacarıqların qiymətləndirilməsi üçün vahid sistem tətbiq edilmir, (2) Azərbaycan tərəfindən olan professor-müəllim heyəti tərəfindən aparılan qiymətləndirmə meyarları Türkiyəli professor-müəllim heyəti tərəfindən aparılan qiymətləndirmə meyarlarından fərqlənir. Komissiya bu məsələ üzrə vahid sistemin tətbiqini məqsədəuyğun hesab edir.

İDP çərçivəsində təhsil alan və sağlamlıq imkanları məhdud şəxslər yoxdur və buna görə həmin kateqoriyadan olan tələbələrə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə haqqında rəy vermək mümkünsüzdür.

Təhsil proqramı üzrə təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsi qanunvericiliyin tələblərinə, o cümlədən AR Təhsil Nazirliyinin Kollegiyasının 15.11.2017-ci il tarixli, 5.3 saylı qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində təhsilalanların köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsinə dair Qaydalar"ına tam uyğundur.

## 8. Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti

ADAU və EU arasında bakalavriat səviyyəsi üzrə "Aqronomluq", "Bitki mühafizəsi", "İqtisadiyyat" və "Aqromühəndislik" ixtisaslarında beynəlxalq təhsil proqramı çərçivəsində mütəxəssis hazırlığının həyata keçirilməsini təmin etmək üçün müxtəlif tədris illərində yerli və xarici professor-müəllim heyəti təhsil proqramına cəlb olunmuşdur. Belə ki, 2020/2021-ci tədris ilində (*onlayn*) - 3 ixtisas üzrə 59 yerli professor-müəllim; 2021/2022-ci tədris ilinin Payız semestrində 4 ixtisas üzrə Ege Universitetindən 11, Yaz semestrində 23, cəmi 34 nəfər, ADAU-dan 47 nəfər professor-müəllim (2020/2021 qəbul ili üzrə təhsilalanlar üçün); 2022/2023-cü tədris ilinin Payız semestrində Ege Universitetindən 4 ixtisas üzrə 36, Yaz semestrində 33 xarici və 7 yerli müəllim, cəmi 76 nəfər professor-müəllim; 2023/2024-cü tədris ilinin Payız semestrində 4 ixtisas üzrə Ege Universitetindən 42 nəfər professor-müəllim tədrisə cəlb edilmişdir. Qeyd edək ki, Türk dili fənnindən C1 səviyyə imtahanlarını təşkil etmək üçün Türk

Dünyası Araşdırmaları İnstitutundan 2022-ci ilin sentyabr ayında 3 müəllim, 2023-cü ildə 3 müəllim cəlb olunmuşdur.

ADAU tərəfindən olan professor-müəllim heyətinin səriştələrinin yüksəldilməsi ilə bağlı qeyd etmək lazımdır ki, bu istiqamətdə yeganə məlum stimullaşdırıcı mexanizm onların İDP çərçivəsində dərs yükünə görə əmək haqlarının, ADAU-nun digər (ənənəvi) fakültələrindəki dərs yükünə görə verilən əmək haqqı ilə müqayisədə, daha yüksək olmasıdır. Komissiya bu istiqamətdə əlavə addımların atılmasını tövsiyə edir. O cümlədən, (1) impakt faktorlu elmi jurnallarda məqalələri çap olunan, EU-da və digər beynəlxalq universitetlərdə yaxud elmi mərkəzlərdə təcrübə keçmiş müəllimlərin İDP çərçivəsində dərs yükü yerinə yetirərkən əmək haqlarının differensial surətdə (məsələn, məqalənin çap olunduğu jurnalın reytinqindən [Q1, Q2 və s.] asılı olmaqla) artırılması məqsədəuyğundur. Bundan başqa, Komissiya üzvlərinin müəllimlərlə görüşü zamanı bu problemlə bağlı məlum olmuşdur ki, təhsil proqramı üzrə yerli müəllim heyəti öz ixtisas sahələri üzrə ixtisasartırma və digər təlim kurslarına qismən cəlb olunurlar. Komissiya tövsiyə edir ki, (a) bu çatışmazlıq təxirəsalınmadan aradan qaldırılmalı və (b) yuxarıda - "Meyar 4" bölməsində qeyd olunmuş addımlar atılmalıdır (məsələn, müntəzəm surətdə ADAU-nun perspektivli gənc müəllim və məzunlarının EU-da doktorantura təhsili və təcrübə keşmələrinin təşkili).

Akademik və inzibati heyətə EU-nun müəllimləri tərəfindən müxtəlif mövzularda təlimlər və seminarlar təşkil edilmişdir. Məsələn, dos. Veysel Bayın "Mendeley Desktop", dos. Özgür Tatar "Məqalə tərtib etmək", Dr. Umut Özər "Bitkilərin *in vitro* üsullar mikroklonal çoxaldılması" mövzularında seminarlar vermişlər.

Təhsil proqramı üzrə akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətlindirilməsi üçün proqram koordinatoru tərəfindən müşahidələr aparılır və, əlavə olaraq, tələbərlə anonim sorğular keçirilir. Həmçinin bu məqsədlə ADAU və EU arasında bakalavriat səviyyəsi üzrə beynəlxalq təhsil proqramlarının birgə tətbiqinə dair protokolunun 23-cü maddəsinə və 29.09.2021-ci il tarixli EU və ADAU Araşdırma və Təhsilin Keyfiyyətinin Təkmilləşdirməsi Fəaliyyətləri üzrə İnzibati və Maliyyə Sazişinin 4-cü maddəsinə əsasən komissiya yaradılmışdır (10.05.2022 tarixli, MİHO1.2.15-3.1_2022_129 saylı Əmr). Bununla yanaşı, Akkreditasiya Komissiyası qiymətləndirmə sisteminin təkmilləşdirilməsi üçün həmkar qiymətləndirilməsinin keçirilməsini tövsiyə edir.

Ştatda olan professor-müəllim heyətinin dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması müəyyən edilmişdir.

ADAU-EU beynəlxalq ikili diplom proqramı çərçivəsində bakalavriat səviyyəsi üzrə hazırda 315 tələbə təhsil alır. Aşağıdakı cədvəldə (Cədvəl 3) tədris illəri üzrə müəllim və tələbə heyətinin nisbəti qeyd edilmişdir.

**Cədvəl 3.** Tədris illəri üzrə müəllim və tələbə heyətinin nisbəti

| **İxtisaslar üzrə** | **2020/2021-ci tədris ili** | **2021/2022-ci tədris ili** | **2022/2023-cü tədris ili** | **2023/2024-cü tədris ili** | **Cəmi** |
|---|---|---|---|---|---|
| Aqronomluq | 30 | 28 | 31 | 30 | **119** |
| Bitki mühafizəsi | 3 | 10 | 9 | 29 | **51** |
| Aqromühəndislik | | 29 | 30 | 29 | **88** |
| İqtisadiyyat | 7 | 8 | 18 | 24 | **57** |
| Cəmi | 40 | 75 | 88 | 112 | **315** |
| Yerli və xarici müəllim heyəti | 59 | 81 | 76 | 42 | |

Universitetin "Beynəlxalq ikili diplom proqramı çərçivəsində tədrisin təşkili haqqında" 30 sentyabr 2022-ci il tarixli MİHO/1.2.15-3.1-2022-822 saylı əmri ilə saat hesabı dərs yükü ödənişi "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliyinin artırılması üzrə Dövlət Proqramı" tərəfindən maliyyələşdirilir.

"Təhsil proqramı üzrə tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması" tələbi (8.9 indikatoru) ilə bağlı qeyd etmək lazımdır ki, İDP-nin tələblərinə görə, 80%-i EU tərəfindən müəyyənləşdirilən professor-müəllim heyəti ADAU-da xidməti müqavilə əsasında işləyir. Bu səbəbdən, qeyd olunan tələb ADAU və EU arasındakı razılaşmaya tam uyğundur.

ADAU və EU-nun İDP-yə cəlb olunmuş professor və müəllim heyətinin təsnifatından aydın olur ki, türkiyəli professor və müəllim heyətinin Proqrama cəlb olunması üstünlük təşkil edir. Bu baxımdan İDP üzrə akademik heyətin strukturunda azərbaycanlı professor-müəllim heyətinin sayının artırılması istiqamətində işlər görülməlidir.

## 9. Təhsil proqramı üzrə tələbəyönümlü tədris

Komissiya üzvlərinin tələbələrlə görüşlərinin və tələbələrlə keçirilən anonim sorğunun nəticələrinə əsasən, İDP üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçilməsində tələbələrin sərbəstliyi tam təmin edilməmişdir. Bundan başqa, təhsilverən və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən seçiminin sərbəstliyi də tam təmin

edilməmişdir. Bu məqamları, həmçinin İDP çərçivəsində təhsilverənlər haqqında məlumatın tələbələrə əlçatanlığını təmin etmək məqsədini əsas tutaraq, Komissiya təhsilverənlər, tyutorlar haqqında məlumatların (CV, videoçarxlar, təqdimatlar) ADAU-nun rəsmi veb-səhifəsində yerləşdirilməsini tövsiyə edir.

Anonim sorğuda iştirak edən 82 tələbədən 19-u (23.1%) həftəlik dərs yükünun dərsdənkənar məşğələlərə vaxt ayırmağa imkan vermədiyini, 15-i (18.3%) isə həftəlik dərs yükünün dərsdənkənar məşğələlərə vaxt ayırmağa bəzən imkan verdiyini qeyd etmişdir (Şəkil 5).




**Şəkil 5.** İDP üzrə təhsil alan tələbələrlə keçirilmiş "Həftəlik dərs yükünüz dərsdənkənar məşğələlərə vaxt ayırmağınıza imkan verirmi?" sualı üzrə anonim sorğunun nəticəsinin sxematik təsviri

ADAU-nun İDP ilə bağlı özünütəhlil hesabatında da qeyd olunduğu kimi, EU və ADAU-nun Keyfiyyət Təminatı və Strateji İnkişaf şöbələri tərəfindən müntəzəm surətdə müvafiq sorğular keçirilir və ADAU-nun veb-səhifəsində yerləşdirilir. Bununla yanaşı, Komissiya belə hesab edir ki, tələbələr arasında müxtəlif istiqamətli rəy sorğularının intensivliyinin və səmərəliliyinin artırılmasına ehtiyac vardır.

Digər tərəfdən, İDP ilə bağlı professor-müəllim heyətinin fəaliyyətinin qiymətləndirilməsi və digər mövzularda tələbələr arasında sorğular keçirilir, lakin onların təhlilinin nəticələri ADAU rəhbərliyi tərəfindən verilən hansısa qərar(lar)da, demək olar ki, nəzərə alınmır.

ADAU-dan Komissiyaya verilən məlumata əsasən, təxminən bir aydır ki, İDP çərçivəsində fəaliyyət göstərən tyutor vardır. Tələbələrlə keçirilən görüşlər və sorğu zamanı məlum olmuşdur ki, İDP koordinatoru, müəllimlər və tələbələr arasında sıx əməkdaşlıq əlaqələri mövcuddur. Bundan başqa, tələbələr müəllimlərlə həm onlayn, həm də üzbəüz şəkildə ünsiyyətdə ola, EU-

nun rəqəmsal xidmətlərindən maneəsiz istifadə edə bilirlər. Hər bir tələbə “Egedərs” platforması üzərindən profillə təmin edilmişdir. Buradan tələbələr fərdi şəkildə EU tərəfindən onlara təyin olunan məsləhətçilərdən dəstək ala bilirlər. Lakin, qeyd olunan müsbət məqamlarla yanaşı, ADAU-nun yerli professor-müəllim heyəti EU-nun rəqəmsal tədris imkanlarından istifadə etmək və bu yolla öz peşəkarlığını artırmaq imkanına malik deyildir. Komissiya təxirəsalmadan onlar üçün də bu imkanların yaradılmasını, yəni yerli professor-müəllim heyəti üçün də müvafiq imkanların yaradılmasını tövsiyə edir.

ADAU tərəfindən, Azərbaycan Respublikasının qanunvericilik sənədlərinə müvafiq olaraq, sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı təmin olunmuşdur. Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının İDP üzrə tədris prosesində nəzərə alınıb-alınmaması ilə bağlı konkret fikir söyləmək mümkün deyildir: hazırda İDP çərçivəsində həmin kateqoriyaya aid olunan tələbələr təhsil almırlar.

Nəhayət, tələbələrin EU-da təcrübə keçmələri və təhsillərini başa vurduqdan sonra mümkün iş yerləri ilə bağlı Komissiya aşağıdakı təklifləri irəli sürür:

- təcrübəkeçmə yerləri və müddətləri əvvəlcədən elan olunsun və tələbələrə müəyyən seçim etmək hüququ verilsin;
- imkan daxilində, təcrübələrin daha uzunmüddətli və dövri olması təmin edilsin;
- tələbələrə təhsillərini başa vurduqdan sonra qəbul oluna biləcəkləri iş yerləri haqqında məlumat verilsin.

## 10. Təhsil proqramının monitorinqi

Təhsil proqramlarının monitorinqi strategiyası və fəaliyyət planı üzrə mövcud vəziyyət qənaətbəxşdır. Belə ki, ADAU-nun Elmi Şurasının 17 sentyabr 2021-ci il tarixli qərarı ilə universitetdə Keyfiyyət Təminatı və Strateji İnkişaf Şöbəsi yaradılmışdır. Şöbənin əsasnaməsini, ADAU-nun Keyfiyyət Təminatı Siyasətini rəhbər tutaraq görülən işlər qənaətbəxşdir. Həmçinin ADAU-nun bu proqram üzrə məsul şöbəsində tədris materialları, imtahan nəticələri, qiymətləndirmə metod və üsulları, proqrama cəlb edilmiş professor-müəllim heyəti və digər məsələlərlə bağlı məlumatlar illər və semestrlər üzrə sistemləşdirilmişdir. İllik hesabatların dinlənilməsi və müzakirəsi zamanı proqram üzrə aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı qərar qəbul edilərək təkmilləşdirmə istiqamətində müvafiq addımlar atılır.

Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanları mövcuddur. ADAU rektorunun 06.10.2023-cü il tarixli əmri (MİHO/1.2.15-3.1320203850) universitetdə tədrisin keyfiyyət səviyyəsinin daxili monitorinqinin keçirilməsi barədədir. Əmrdə təhsilin keyfiyyəti konsepsiyasına uyğun olaraq, təhsilin daxili keyfiyyət təminatı infrastrukturunun qurulması və fəaliyyətinin yaxşılaşdırılması istiqamətində məqsədyönlü iş aparılmışdır.

Universitet tədrisinin keyfiyyət səviyyəsinin daxili monitorinqinin keçirilməsi barədə ADAU rektorunun 08.04.2022-ci il MİHO 1.2.15.3.1-2022-43 saylı əmrinə əsasən monitorinq qrupları beynəlxalq ikili diplom proqramı çərçivəsində Ege Universitetindən dəvət olunan professor-müəllim heyəti nümayəndələri ilə birgə fəaliyyət göstərir. Yekun olaraq qeyd olunur ki, İDP-də əmək fəaliyyətinə cəlb edilən əcnəbi və yerli professor-müəllim heyətinin akademik fəaliyyətinin keyfiyyətinin monitorinqinə dair hesabatlar hazırlanır və monitorinqin nəticələrinə əsasən təkmilləşdirmə tədbirləri həyata keçirilir. Əlavə olaraq, sahə səfəri zamanı təhsil proqramının illik özünüqiymətləndirmə hesabatları Komissiyaya təqdim olunmuşdur.

Bununla yanaşı, təhsil proqramının monitorinqi zamanı Türkiyənin Keyfiyyət Təminat Təşkilatının meyarlarına da istinad edilir. Türkiyənin Keyfiyyət Təminat Təşkilatının 23 mart 2023-cü il tarixli qərarı ilə Akkreditasiya olunmuş meyarlara əsasən izlənilmə və 2 ildən bir monitorinq həyata keçirilir.

Sahə səfəri zaman qeyd olunan işlərin yerinə yetirilməsi məqsədilə, ADAU-da "Universitet tədrisinin keyfiyyət səviyyəsinin daxili monitorinqlərinin keçirilməsi barədə" (08.04.2022 tarixli, MİHO/1.2.15.3.1.-2022-43 saylı Əmr), "Təhsil Proqramlarının özünüqiymətləndirmə" hesabatlarının verilməsi barədə (23.09.2023 tarixli, 3-22-23/3-1-1372/202 saylı Əmr), "Monitorinq qruplarının yaradılması barədə" (14.10.2023 tarixli, 3-22-23/3-1-1496/202 saylı Əmr), "Universitetdə yeni qiymətləndirmə modellərinin tətbiqinin genişləndirilməsi haqqında" (28.09.2023 tarixli, 3-22-23/3-1-1172/202 saylı Əmr), "Daxili keyfiyyət təminatı səviyyəsinin monitorinqləri barədə" (02.09.2023 tarixli, 3-22-23/3-1-1212/2023 saylı Əmr), "Daxili keyfiyyət təminatı səviyyəsinin monitorinqi barədə" (13.12.2021 tarixli, 700 saylı Əmr) əmrlərə Komissiya tərəfindən baxış keçirilmişdir.

Proqramların monitorinqinin aparılması üçün Rəhbər Komitə üzvləri tərəfindən vaxtaşırı görüşlər keçirilir. Rəhbər Komitə 24.10.2023-cü il tarixli, MİHO/1.2.15-3-2022-6371 saylı Əmrə əsasən yaradılmış və 8 üzvdən (2 üzv - ADAU, 2 üzv - EU, 2 üzv - Kənd Təsərrüfatı Nazirliyi və 2 üzv - Elm və Təhsil Nazirliyi) ibarətdir. 25 oktyabr 2023-cü il tarixində keçirilən Rəhbər Komitə görüşü zamanı bir sıra qərarlar verilmişdir. Belə ki, İqtisadiyyat ixtisası əvəzinə - yeni ixtisasların, yəni "Zoomühəndislik", "Torpaqşünaslıq", "Baytarlıq" ixtisaslarının Proqrama əlavə edilməsi ilə bağlı ilkin danışıqlar aparılmışdır. Əlavə olaraq proqram çərçivəsində Ege Universiteti tərəfindən ADAU-ya təyin olunan professor-müəllim heyətininin əmək haqları müzakirə edilmiş və onların gündəlik xidmət haqlarının xalis 120 USD (daha əvvəl - 105 USD) olaraq hesablanması məqsədəuyğun hesab edilmişdir.

"2019-2023-cü illlər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində Ege Universiteti və ADAU arasında keçirilən beynəlxalq ikili diplom proqramının idarə edilməsi və monitorinqinin aparılması üçün formalaşdırılan Rəhbər Komitənin (RK) 30 may 2023-cü il və 25 oktyabr 2023-cü il tarixlərində iki iclası keçirilmişdir.

RK-nın 30 may 2023-cü il tarixində keçirilmiş iclasının nəticələri aşağıdakı kimidir:

*1. İDP direktoru tələbələrlə bağlı məsələlərin həll edilməsi və onları müşayiət etməsi məqsədilə 01.08.2023-15.08.2023-cü il tarixləri arasında Türkiyənin İzmir şəhərində yerləşən Ege Universitetinə ezam olunmuşdur.*

*2. İDP tələbələrinin EU-da olduqları müddətdə bütün xərclərinin EU və ADAU-nun Araşdırma və Təhsilin Keyfiyyətinin Təkmilləşdirilməsi Fəaliyyətləri üzrə İnzibati və Maliyyə Sazişinin 6-cı maddəsinin 14-cü bəndinə əsasən Dövlər Proqramı çərçivəsində təmin olunması qərara alınmışdır.*

*3. EU və ADAU arasında imzalanmış Araşdırma və Təhsilin Keyfiyyətinin Təkmilləşdirilməsi Fəaliyyətləri üzrə İnzibati və Maliyyə Sazişinə əsasən, xərclər smetası təsdiq olunmuşdur.*

*4. Maliyyə Sazişinin 6-cı maddəsinin 16-cı hissəsini icra etmək məqsədilə təsdiq edilmiş 2023-cü ilin dürüstləşdirilmiş xərclər smetası ilə bağlı Maliyyə Sazişinə müvafiq əlavə hazırlanmış və ikitərəfli (EU və ADAU) qaydada təsdiqlənmişdir.*

RK-nın 25 oktyabr 2023-cü il tarixində keçirilmiş iclasının nəticələri isə aşağıdakı kimidir:

*1. Ölkənin prioritet sahələrindən biri olan kənd təsərrüfatı yönümlü ixtisaslar üçün kadr hazırlığı istiqamətində beynəlxalq ikili diplom proqramının davam etməsinin böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq uğurla icra olunan ADAU-EU beynəlxalq ikili diplom proqramının davam etməsi və İqtisadiyyat ixtisası əvəzinə - yeni ixtisasların, yəni Zoomühəndislik, Torpaqşünaslıq və Baytarlıq ixtisaslarının Proqrama əlavə edilməsi istiqamətində ilkin danışıqlar aparılmış və lazımi sənədlər hazırlanmışdır.*

*2. Proqram çərçivəsində EU tərəfindən ADAU-ya təyin olunan professor-müəllim heyətininin əmək haqları müzakirə edilmiş və onların gündəlik xidmət haqlarının xalis 120 USD olaraq hesablanması məqsədəuyğun hesab edilmişdir.*

*3. EU və ADAU arasında imzalanmış Araşdırma və Təhsilin Keyfiyyətinin Təkmilləşdirilməsi Fəaliyyətləri üzrə İnzibati və Maliyyə Sazişinə əsasən, 2024-cü təqvim ili üzrə xərclər smetası ətraflı müzakirə olunmuş və təsdiq edilmişdir.*

*4. Gəncə-Daşkəsən iqtisadi rayonu və digər yaxın rayonlarda yaşayan, Türkiyənin EU-də təhsil almaq üçün YÖS imtahanlarına qatılmaq istəyən abituriyentlərin imtahanlarının ADAU-da təşkili üçün əməkdaşlıq çərçivəsində protokol imzalanmışdır.*

ADAU-nun bütün infrastrukturlarını əhatə edən monitorinq qrupları yaradılmışdır. Bütün bu işlər Proqram üzrə təlim nəticələrinə nəzarət imkanları yaratmışdır. Ümumilikdə qeyd oluna bilər ki, təhsil proqramının monitorinqi İDP-nin prioritetlərindəndir.

Digər tərəfdən, İDP üzrə tədris proqramının monitorinqi zamanı aşkar olunmuşdur ki, mövcud standartlara görə, həftəlik dərs saatları yükü ölkəmizin ali təhsil müəssisələrində 20-22 saatdır, lakin İDP-də 30 saatdır. Bu faktı əsas tutan Komissiya tövsiyə edir ki, İDP-də ixtisasların tədris planlarında fənlərin auditoriya saatlarının tənzimlənməsinə yenidən baxılsın və hər bir fənnin mənimsənilməsində auditoriyadan kənar saatların miqdarı artırılsın.

## 11. Təhsil proqramının davamlı təkmilləşdirilməsi və yenilənməsi

Proqramın davamlılığını təmin etmək üçün qarşıya qoyulmuş əsas strateji hədəflərdən biri aqrar sahəyə töhfə verəcək, əmək bazarının tələblərini ödəyən məzunlar hazırlamaq və bu yolla “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın əsas prioritet məqsədlərindən olan qeyri-neft sektorunun davamlı inkişafı, ölkə regionlarının tarazlı inkişafının təmin edilməsi ilə bağlı aqrar sahədə müasir tələblərə cavab verən mütəxəssis hazırlığına nail olmaqdır.

Beynəlxalq İDP çərçivəsində bakalavriat səviyyəsi üzrə “Bitki mühafizəsi”, “Aqronomluq”, “İqtisadiyyat” və “Aqromühəndislik” ixtisaslarında təhsilin keyfiyyətinin yüksəldilməsi və səriştəli kadr hazırlığı ilə yanaşı, yaxın illərdə müvafiq ixtisaslar üzrə aparılan elmi-tədqiqat işlərinin genişləndiliməsi, müxtəlif beynəlxalq tədqiqat layihələrinin işlənməsi və reallaşdırılması, bu tədqiqatların nəticəsi olaraq beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə aid yüksək impakt faktorlu jurnallarda ortaq tədqiqat işlərinin nəticələrinin nəşrinin artırılması, ADAU-EU maddi-texniki bazasının ortaq potensial imkanlarından istifadənin gücləndirilməsi, ADAU-da mövcud tədris laboratoriyalarının təchizatının yaxşılaşdırılması, ADAU-da professor-müəllim heyəti və tələbələr üçün çoxşaxəli təlimlərin keçirilməsi nəzərdə tutulub. Qeyd olunanlara müvafiq olaraq, ADAU-da uyğun ixtisaslar üzrə təhsil alan gənc magistrant və doktorantların İDP üzrə tədris prosesinə davamlı olmaqla sirayətləndirilməsi, onların da Ege Universitetinin müəllimlərinin bilik və bacarıqlarına yiyələnmələri tövsiyə olunur.

Azərbaycan Dövlət Aqrar Universiteti Elmi Şurasının 31 oktyabr 2023-cü il tarixli iclasının protokolundan çıxarışa əsasən (EŞ-02/3.16.) universitetin keyfiyyət siyasətinin təkmilləşdirilməsi üçün müəyyən edilmiş meyarlar təsdiqlənmiş, universitetin keyfiyyət siyasətinin təkmilləşdirilməsi və perspektivliyinin istehsalatla müştərəkliyinin təşkili üçün Qida Aqro MMC-nin bölgə üzrə Yem satış şöbəsinin müdiri xarici maraqlı tərəf kimi təsdiq olunmuşdur.

Azərbaycan Dövlət Aqrar Universiteti Elmi Şurasının 31 oktyabr 2023-cü il tarixli iclasının protokolundan çıxarışa əsasən (EŞ-02/3.17.) universitetin Beynəlmiləlləşmə siyasətinin təkmilləşdirilməsi meyarları təsdiq olunmuş, Beynəlmiləlləşmə siyasətinin perspektivliyinin və inkişaf etmiş xarici universitetlərlə əməkdaşlığının inkişaf etdirilməsi məqsədi ilə Ege Universitetinin Bitki mühafizəsi kafedrasının professoru xarici maraqlı tərəf kimi müəyyən edilmişdir. Azərbaycan Dövlət Aqrar Universitetinin Beynəlmiləlləşmə siyasəti və Azərbaycan Dövlət Aqrar Universitetinin 2023-2027-ci illər üzrə Strateji Planı tədris və tədqiqat işlərinin beynəlmiləlləşməsini əsas hədəf istiqamət olaraq götürür. Beynəlmiləlləşmə sahəsində

əməkdaşlıqda ADAU-nun fəaliyyətinin müxtəlif layihələrində xarici təhsil müəssisələri ilə tərəfdaşlığı nəzərdə tutan təlim təkliflərindən tutmuş tədqiqat və inkişaf təcrübələrinə, eləcə də strateji tərəfdaşlıq çərçivəsində ictimaiyyətlə əlaqələr layihələrinə qədər prioritet təşkil edir. ADAU-nun Beynəlmiləlləşməsi siyasətində məqsəd tələbə və müəllimlərin bilik və bacarıqlarının inkişaf etdirilməsi, innovasiyalara səbəb olan və keyfiyyətin təminatını asanlaşdıran strateji düşüncəni stimullaşdırmaq, texnoloji inkişafa nail olmaqdır.

## 12. Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

İDP üzrə məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmləri hələlik işlənib hazırlanmayıb – bu proqram üzrə məzun yoxdur. Lakin Komissiya tövsiyə edir ki, Proqram rəhbərliyi bu istiqamətdə hazırlaq işlərinə başlasın.

İDP üzrə məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnun olub-olmayacağının indidən söyləmək mümkünsüzdür - bu proqram üzrə məzun yoxdur.

İDP üzrə məzunlarla davamlı əlaqə sistemi mövcud deyildir – belə ki, bu proqram üzrə məzun yoxdur.

Yeni texnologiyaların tətbiqinə əsaslanan innovativ təhsil proqramını mənimsəmiş İDP məzunlarının qazandıqları bilik və bacarıqlar sayəsində ölkənin aqrar-iqtisadi sferasında müvafiq sahələr üzrə əmək bazarında iştirakının təmin olunması üçün onlara karyerə məsləhət xidməti göstərilməli, məzunlarla davamlı əlaqə sistemi yaradılmalıdır. Bu baxımdan tədris prosesində yüksək nəticələr göstərməklə seçilən fəal tələbələrin tədris müddətində təkcə müəyyən elmi-tədqiqatlara deyil, ölkədə aqrar sfera üzrə mövcud müxtəlif qurumlarla əlaqələndirilməsi, seçilmiş rəhbərlərlə birlikdə aqrar-iqtisadi sfera üzrə mövcud müxtəlif dövlət proqramlarına cəlb olunması məqsədəuyğundur. Həmçinin İDP üzrə ali təhsilin bakalavriat səviyyəsini bitirmiş tələbələrin təhsillərini davam etdirmələrinə (məsələn, magistratura səviyyəsində təhsillərini necə davam etdirmələrinə) dair təhsil strategiyası işlənib hazırlanmalıdır.

## Komissiyanın meyarlar üzrə təhlili

| 1. Təhsil proqramı üzrə təhsilalanların qəbulu | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | Bu meyar üzrə ADAU-EGE İkili Diplom Proqramı üzrə aparılmış və aparılan işlər mövcud müvafiq qanunlara/qərarlara uyğundur, yəni hansısa çatışmazlıq aşkar olunmamışdır. Digər tərəfdən, məlum olmuşdur ki, İDP üzrə ADAU-ya qəbul olunanların qəbul balı çox aşağıdır. Belə ki, indiyədək İDP çərçivəsində, 4 ixtisas üzrə cəmi 4 nəfərin qəbul balı 500 və daha yüksək olmuşdur. Bu səbəbdən bir çox tələbələr baza fənlərini mənimsəməkdə çətinlik çəkirlər (bu fakt Komissiya üzvlərinin tələbələrlə görüşlərində aşkar olunmuşdur). Komissiya belə hesab edir ki, bu məsələdə qısa müddətdə əsaslı dönüşə nail olmaq mümkündür (bax: aşağıdakı tövsiyə). |
| **Komissiyanın tövsiyəsi** | İDP-nin və bütövlükdə ADAU-nun rəhbərliyi (1) kütləvi informasiya vasitələrindən (televiziya, mətbuat və sosial şəbəkələr), (2) ADAU-nun veb-səhifəsinin imkanlarından maarifləndirmə və cəlbetmə məqsədi ilə istifadə etməyi, (3) abituriyentlər və onların valideynləri üçün "Açıq qapı" günləri keçirməyi tövsiyə edir. Hələlik bu proqram üzrə məzunlar olmasa da, təklif olunan maarifləndirmə işlərində aşağıdakı cəlbedici məqamlardan yararlanmaq olardı:<br>✓ məzunlara ikili diplom verilməsi;<br>✓ tədris prosesi (o cümlədən, praktiki işlər) üçün ADAU-da müasir maddi-texniki bazanın varlığı;<br>✓ tədris prosesinə EU tərəfindən yüksək ixtisaslı və təcrübəli müəllimlərin cəlb olunması;<br>✓ tələbələrin EU-da təcrübə keçməsi;<br>✓ tələbələrin sərbəst və ya qrup halında elmi tədqiqatlara qoşulması üçün şəraitin yaradılması;<br>✓ ADAU-da tələbələr üçün "kampus" prinsipi əsasında müasir, rahat yataqxana kompleksinin olması (məsələn, dərslərə və sahə təcrübələrinə gedib-gəlmək üçün tələbələrin nəqliyyat problemi yoxdur);<br>✓ tədris prosesində yüksək nəticələrə nail olan tələbələr üçün əlavə maddi həvəsləndirmə sisteminin olması;<br>✓ yeni texnologiyalara əsaslanan innovativ təhsil proqramının mənimsənilməsi sayəsində universiteti bitirdikdən sonra məzunların qazandıqları bilik və bacarıqlarına olan tələbat |

| | |
|---|---|
| | əsasında ölkə iqtisadiyyatının müvafiq sahələri üzrə əmək bazarında iştirakının təmin olunması və bunun üçün tələbələrin tədris aldıqları müddətdə mütəxəssis kimi yetişdirilməsi;<br>✓ tədris prosesində yüksək nəticələrə nail olan və seçilmiş tələbələrin tədris müddətində dövlət proqramlarına, İDP çərçivəsində mövcud və hazırlanan layihələrə cəlb olunması. |

| **2. Təhsil proqramı üzrə əvvəlki kvalifikasiyaların tanınması** | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | Bu meyar üzrə ADAU-EGE ikili diplom proqramları üzrə aparılmış və aparılan işlər mövcud müvafiq qanunlara/qərarlara tam uyğundur. |
| **Komissiyanın tövsiyəsi** | Yoxdur. |

| **3. Təhsil proqramı üzrə tədrisin təşkili** | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | 1. Tədrisin təşkili zamanı ölkənin xüsusi marağında olan fənlər və həmin fənlər üzrə yerli mütəxəssislərin cəlb edilməsində çatışmazlıqlar müşahidə edilmişdir.<br>2. Seçmə fənlərin müəyyənləşdirilməsində tələbələrin sərbəstliyi (seçim hüququ) tam təmin olunmur. Tələbələr arasında keçirilən anonim sorğuların nəticələri buna dəlalət edir.<br>3. İDP-nin mövcud idarəetmə strukturu yetkin deyildir:<br>✓ tədris proqramı üzrə sistemləşdirilmiş məsləhət xidməti mövcud deyil;<br>✓ proqram üzrə tədris məsləhətçiləri (tyutorlar) yoxdur.<br>4. Təhsil proqramı üzrə fənlərin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, tədris prosesində tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi, tədris prosesinə nəzarət və onun nəticələrinin qiymətləndirilməsi yalnız EU ZİDEK Kənd Təsərrüfatı, Meşəçilik və Balıqçılıq Fakültəsinin Təhsil Proqramlarının Akkreditasiyası üçün Ali Təhsil Keyfiyyəti Şurası tərəfindən verilmiş Keyfiyyətin Qiymətləndirilməsi Qeydiyyatı |

| | |
|---|---|
| | Sertifikatına sahib olan Türkiyənin Keyfiyyət Təminat Təşkilatının 23 mart 2023-cü il tarixli qərarı ilə Akkreditə olunmuş Proqram Təlim Nəticələrinə əsasən həyata keçirilir; bu məsələdə AR ETN-nin mövcud normativ sənədlərinə müvafiq mexanizmlər tətbiq edilmir.<br>5. Həftəlik dərs yükü (həftəlik 30 saat) tələbələrə dərsdənkənar məşğələlərə kifayət qədər vaxt ayırmağa imkan vermir.<br>6. ADPU-nun özünün müəllim-mütəxəssis heyətinin peşəkarlığının yüksəldilməsi üçün EU-dan olan professor-müəllim heyətinin bilik və təcrübəsindən yalnız qismən istifadə olunur.<br>7. Bütün ixtisaslar üzrə, kredit borcu olan tələbələrin sayının tədris illəri üzrə dinamikası artan meylə malikdir və bu neqativ tendensiyada qeyri-ixtisas fənləri (xüsusən, "Ümumi kimya", "Statistikanın əsasları", "Xarici dil" və "Riyaziyyat") üstünlük təşkil edir. |
| **Komissiyanın tövsiyəsi** | 1. Seçmə fənlər blokunda ölkəmizin xüsusi maraqlarına uyğun fənlərin nisbi payı artırılsın.<br>2. Seçmə fənlərin seçimində tələbələrə tam sərbəstlik verilsin.<br>3. İDP-nin daha səmərəli olması üçün onun idarəetmə strukturu təkmilləşdirilsin:<br>✓ Proqram üzrə sistemləşdirilmiş məsləhət xidməti yaradılsın;<br>✓ "Proqram katibi" xidməti təkmilləşdirilsin;<br>✓ Proqrama tədris məsləhətçiləri (tyutorlar) cəlb olunsun.<br>4. Təhsil proqramı üzrə fənlərin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, tədris prosesində tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi, tədris prosesinə nəzarət və onun nəticələrinin qiymətləndirilməsində AR ETN-nin mövcud normativ sənədləri də nəzərə alınsın.<br>5. Tələbələrin dərsdənkənar məşğələlərə vaxt ayıra bilməsi üçün həftəlik dərs yükünə yenidən baxılsın və digər tədbirlər görülsün.<br>6. ADPU-nun özünün müəllim-mütəxəssis heyətinin peşəkarlığının yüksəldilməsi üzrə işlərə EU-dan olan professor-müəllim heyəti təhkim olunsun.<br>7. Bütün ixtisaslar üzrə kredit borcu probleminin həlli üçün müvafiq təxirəsalınmaz tədbirlər həyata keçirilsin (o cümlədən, müəllimlərin peşəkarlığı artırılsın, imkan daxilində dərs yüklərinə yenidən baxılsın və zərurət olarsa, seçilmiş mövzular üzrə dərsdənkənar əlavə məşğələlər təşkil olunsun). |

| 4. Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | 1. ADAU-nun dekanlıq və kafedralarının, "yerli" müəllimlərin EU təcrübəsini öyrənməsi və tədris prosesində istifadə etməsinin vəziyyət (bütün ixtisaslar üzrə) qənaətbəxş deyildir.<br>2. İDP-də bütün ixtisaslar üzrə AR-nın ümumi təhsil pilləsinin dövlət standartları və proqramlarının nəzərə alınması qənaətbəxş deyildir.<br>3. Fərqli metodikalar ilə keçirilən mühazirələr və praktiki məşğələlər onların tələbələr tərəfindən mənimsənilməsində fərqli nəticələr verir.<br>4. Müxtəlif fənlərin tədrisində mühazirə və praktik məşğələ dərslərində AR üçün aktual olan müvafiq problemlər, demək olar ki, nəzərə alınmır.<br>5. Tədris prosesində aktiv öyrənmə üçün müəyyən texnoloji imkanlardan istifadə olunur, lakin onların müasir yanaşmalarla genişləndirilməsinə ehtiyac vardır. |
| **Komissiyanın tövsiyəsi** | 1. 1-ci iradla bağlı aşağıdakı addımlar atılsın:<br>✓ yerli gənc müəllimlər tərəfindən EU müəllimlərinin tədris proqramlarının, mühazirə və məşğələ materiallarının hazırlanması və istifadəsi sahəsində təcrübəsi məqsədyönlü və müntəzəm şəkildə öyrənilsin;<br>✓ gənc kadrlar, doktorant və magistrantların EU-nun magistratura və doktorantura, həmçinin təcrübəkeçmə sistemlərindən bəhrələnməsi üzrə xüsusi proqram hazırlansın və həyata keçirilsin;<br>✓ ADAU-nun müvafiq dekanlıq və kafedraları tərəfindən EU təcrübəsi öyrənilsin və ADAU şəraitinə və İDP şərtlərinə müvafiq olmaqla, tədris planları, fənn proqramları və sillabusların yenilənməsi zamanı tətbiq edilsin;<br>2. İDP-də bütün ixtisaslar üzrə tədris proqramlarında AR-nın ümumi təhsil pilləsinin dövlət standartları və proqram tələbləri ilə bağlı müvafiq dəyişikliklər edilsin və tətbiq olunsun.<br>3. Mühazirələr və praktiki məşğələlərin eyni (vahid) metodikalar ilə keçirilməsi təmin olunsun.<br>4. Mühazirə və praktik məşğələ proqramlarında AR üçün aktual olan müvafiq problemlər nəzərə alınsın. |

| | |
|---|---|
| | 5. Tədris prosesində müasir texnoloji vasitələr daha geniş və müntəzəm istifadə olunsun. |

| **5. Təhsil proqramı üzrə istifadə olunan təlim və tədris resursları** | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | 1. Tədris planlarında Azərbaycanda kənd təsərrüfatının müasir problemləri, demək olar ki, əks olunmamışdır.<br>2. Tədris və elmi tədqiqat proseslərinin texniki təchizatı üzrə təqdirəlayiq məqamlar çoxdur, lakin müəyyən çatışmazlıqlar da vardır:<br>✓ "Aqronomluq", "Bitki mühafizəsi" və "Aqromühəndislik" ixtisasları üzrə tədris/tədqiqat laboratoriyalarındakı bir sıra müasir avadanlıqlar işlək vəziyyətdə deyildir;<br>✓ kimyəvi reagentlər çatışmır;<br>✓ müasir avadanlıqlardan səmərəli istifadə zamanı bir sıra hallarda elmi-pedaqoji və köməkçi heyətin təcrübəsi yetərli deyildir.<br>3. EU-dan və ADAU-dan olan mütəxəssislərin verdikləri seminarlarda yerli elmi-pedaqoji heyətin üzvləri müntəzəm iştirak etmirlər.<br>4. 2021-2023-cü tədris illərində İDP çərçivəsində təhsilalanlar sırasında sağlamlıq imkanları məhdud şəxslər olmasalar da, qeyd olunmalıdır ki, ADAU-da belə tələbələr üçün uyğunlaşdırılmış tədris resursları yox dərəcəsindədir. |
| **Komissiyanın tövsiyəsi** | 1. Tədris planlarında Azərbaycanda kənd təsərrüfatının müasir problemləri nəzərə alınsın.<br>2. 2-ci iradla bağlı maddi-texniki təchizat və onların tətbiqi yaxşılaşdırılsın.<br>3. Elmi seminarların müntəzəmliyi və orada yerli mütəxəssislərin mütəmadi iştirakı təmin olunsun.<br>4. Gələcəkdə ADAU-da İDP üzrə tədrisə qoşula biləcək sağlamlıq imkanları məhdud şəxslərin təhsili üçün tədris resurslarının uyğunlaşdırılması aparılsın. |

| 6. Təhsil proqramı üzrə tələb olunan təhsil infrastrukturu və maddi-texniki baza | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | 1. “Aqronomluq”, “Bitki mühafizəsi” və “Aqromühəndislik” ixtisasları üzrə tədris/tədqiqat laboratoriyaları üçün nəzərdə tutulmuş bəzi cihazlar işlək vəziyyətdə deyildir, kimyəvi reagentlər çatışmır, avadanlıqlar mütəmadi texniki baxışdan keçirilmir.<br>2. ADAU tərəfindən hər semestrin sonunda tədris infrastrukturundan istifadənin yazılı monitorinq hesabatı aparılmır. |
| **Komissiyanın tövsiyəsi** | 1. Hər semestrin başlanğıcında və sonunda tədris/tədqiqat laboratoriyalarının texniki monitorinqi aparılsın və hesabat formasında ADAU rəhbərliyinə təqdim olunsun.<br>2. Tədris-tədqiqat laboratoriyalarının mütəmadi texniki baxışdan keçirilməsi təmin olunsun.<br>3. Tədris-tədqiqat laboratoriyalarının kimyəvi reagentlərlə təminatı üçün (az olmayan) maliyyə resursları tələb olunduğunu nəzərə alaraq, bu işə maraqlı tərəflərin və təmənnasız yardım edə biləcək təşkilatların cəlb olunması üçün müəyyən addımlar atılsın.<br>4. ADAU tərəfindən hər semestrin sonunda tədris infrastrukturundan istifadənin yazılı monitorinq hesabatı aparılsın. |

| 7. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | İDP çərçivəsində bilik və bacarıqların qiymətləndirilməsi üçün vahid sistem tətbiq edilmir: Azərbaycan tərəfindən olan professor-müəllim heyəti tərəfindən aparılan qiymətləndirmə meyarları EU-nun professor-müəllim heyəti tərəfindən aparılan qiymətləndirmə meyarlarından fərqlidir. |
| **Komissiyanın tövsiyəsi** | İDP çərçivəsində bilik və bacarıqların qiymətləndirilməsi üzrə vahid sistem tətbiq edilsin. |

| 8. Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | 1. Təhsil proqramı üzrə yerli müəllim heyəti öz ixtisas sahələri üzrə ixtisasartırma və digər təlim kurslarına qismən cəlb olunurlar.<br>2. ADAU tərəfindən olan professor-müəllim heyətinin səriştələrini yüksəltməyə stimullaşdırmaq üzrə bu gün tətbiq olunan yeganə |

| | |
|---|---|
| | mexanizm onların İDP çərçivəsində dərs yükünə görə əmək haqlarının, ADAU-nun digər (ənənəvi) fakültələrindəki dərs yükünə görə verilən əmək haqqı ilə müqayisədə, daha yüksək olmasıdır. Komissiya belə hesab edir ki, bu mexanizm əsas məqsədə çatmaq üçün yetərli deyildir. |
| **Komissiyanın tövsiyəsi** | 1. İDP üzrə akademik heyətin strukturunda azərbaycanlı professor-müəllim heyətinin nisbi payı Proqramın imkan verdiyi çərçivədə artırılsın.<br>2. ADAU-nun perspektivli gənc müəllim və məzunlarının EU-da doktorantura təhsili və təcrübə keçmələri təşkil olunsun.<br>3. ADAU tərəfindən olan professor-müəllim heyətinin səriştələrini yüksəltməyi stimullaşdırmaq üçün aşağıdakı əlavə addımlar atılsın:<br>✓ impakt faktorlu elmi jurnallarda məqalələri çap olunan, EU-da və digər beynəlxalq universitetlərdə yaxud elmi mərkəzlərdə təcrübə keçmiş müəllimlərin əmək haqqı differensial surətdə (məsələn, məqalənin çap olunduğu jurnalın reytinqindən [Q1, Q2 və s.] asılı olmaqla) artırılsın;<br>✓ azərbaycanlı professor-müəllim heyətinin fəaliyyətini qiymətləndirmək üçün "həmkar qiymətləndirilməsi" təcrübəsi sınaqdan keçirilsin. |

| **9. Təhsil proqramı üzrə tələbəyönümlü tədris** | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | 1. Seçmə fənlərin tələbələr tərəfindən seçilməsində onlara sərbəstlik verilmir.<br>2. Təhsilverənlərin tələbələr tərəfindən seçilməsi imkanı minimaldır.<br>3. Tələbələr arasında keçirilən sorğuların nəticələri müvafiq (məsələn, professor-müəllim heyətinin fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı) qərarların verilməsində nəzərə alınmır.<br>4. Həftəlik dərs yükü (30 saat) dərsdənkənar məşğələlərə qismən vaxt ayırmağa imkan verir.<br>5. ADAU-nun yerli professor-müəllim heyəti EU-nun rəqəmsal tədris resurslarından istifadə etmək və bu yolla öz peşəkarlığını artırmaq imkanına malik deyildir. |

| | |
|---|---|
| **Komissiyanın tövsiyəsi** | 1. 1-ci və 2-ci iradları nəzərə alaraq, həmçinin İDP çərçivəsində təhsilverənlər haqqında məlumatların tələbələr üçün əlçatan olması məqsədini əsas tutaraq, təhsilverənlər, tyutorlar haqqında məlumatlar (CV, videoçarxlar, təqdimatlar) ADAU-nun rəsmi veb-səhifəsində yerləşdirilsin.<br>2. Tələbələrə ünvanlanan sorğuların nəticəyönümlü və daha ölçüləbilən olması məqsədi ilə həmin sorğular digər vasitələrlə (şikayətlər qutusu, anonim elektron rəy/müraciət bölməsi və s.) də təşkil olunsun.<br>3. ADAU-nun yerli professor-müəllim heyətinə EU-nun rəqəmsal tədris resurslarından imkanlarından istifadə etmək imkanı verilsin.<br>4. Tələbələrin EU-da təcrübə keçmələri və təhsillərini başa vurduqdan sonra mümkün iş yerləri ilə bağlı:<br>✓ imkan daxilində, EU-da təcrübələrin daha uzunmüddətli və dövri olması təmin edilsin;<br>✓ tələbələrə təhsillərini başa vurduqdan sonra qəbul oluna biləcəkləri iş yerləri haqqında məlumat verilsin. |

| **10. Təhsil proqramının monitorinqi** | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | 1. İDP üzrə tədris proqramının monitorinqi aşkar etmişdir ki, mövcud standartlara görə, həftəlik dərs saatları yükü ölkəmizin ali təhsil müəssisələrində 20-22 saatdır, lakin İDP-də 30 saatdır.<br>2. İDP üzrə tədris proqramının monitorinqi ADAU-nun Keyfiyyət Təminatı və Strateji İnkişaf şöbəsi tərəfindən həyata keçirilir. Lakin həmin monitorinqlərə kənar (müstəqil) ekspertlər cəlb olunmamışdırlar. |
| **Komissiyanın tövsiyəsi** | 1. İDP üzrə ixtisasların tədris planlarında fənlərin auditoriya saatlarının tənzimlənməsinə yenidən baxılsın və hər bir fənnin mənimsənilməsində auditoriyadan kənar saatların miqdarı artırılsın.<br>2. ADAU-nun Keyfiyyət Təminatı və Strateji İnkişaf şöbəsi tərəfindən aparılan müvafiq monitorinqlərə kənar (müstəqil) ekspertlər cəlb olunsun. |

| 11. Təhsil proqramının davamlı təkmilləşdirilməsi və yenilənməsi | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | İDP-nin İqtisadiyyat ixtisasının tədris planınında qeyd olunmuşdur ki, (1) diplom işlərinin mövzuları türkiyəli mütəxəssislər tərəfindən verilir və (2) həmin mövzular əsasən Türkiyə coğrafiyasını əhatə edir. |
| **Komissiyanın tövsiyəsi** | (1) Diplom işlərinin mövzularının müəyyənləşdirilməsində prioritet məsələlər Azərbaycanda aqrar sektorun iqtisadiyyatı, aqrar biznesin inkişaf problemləri və perspektivləri olsun və (2) buraxılış işlərinin hazırlanması və müdafiəsinin təşkili işlərinə yerli mütəxəssislər də cəlb olunsun. |

| 12. Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | Yoxdur. |
| **Komissiyanın tövsiyəsi** | İDP üzrə hələ ki, məzun yoxdur, lakin Komissiya İDP rəhbərliyinin bu istiqamətdə hazırlıq işlərinə başlamasını məqsədəuyğun hesab edir. |

| Aqronomluq, Aqromühəndislik, Bitki mühafizəsi və İqtisadiyyat | |
|---|---|
| **Güclü tərəflər** | - Son kurs tələbələrinin Türkiyədə təhsilə cəlb olunması<br>- Ölkə iqtisadiyyatın aqrar sahəsini əhatə edən ixtisaslar (o cümlədən Aqromühəndislik) üzrə ilk ikili dövlət proqramının ADAU-da olması (bu yaxınlarda ADA Universitetində də oxşar İDP-nin başlanılması nəzərə alınmaqla belə)<br>- İDP rəhbərliyinin və professor-müəllim heyətinin peşəkarlığı və maddi motivasiya səviyyəsinin yüksək olması<br>- Bütövlükdə, müasir avadanlıqlarla təchiz olunmuş təcrübə laboratoriyalarının olması<br>- İxtisasların regionun əmək bazarının tələblərinə uyğun olması<br>- Müasir tədris-təcrübə imkanlarına, tələbələrin müasir yataqxana və təcrübə sahələrinə getmək üçün nəqliyyat vasitələri ilə təmin olunmasına, təhsildə yüksək nəticələrə nail olan tələbələrin əlavə maddi stimullaşdırılmasına və daimi yaşayış yerlərinə (evlərin) daha rahat gediş-gəliş imkanlarına görə yaxın rayonlardan olan gənclər üçün ADAU-da təhsil almağın daha uyğun olması<br>- Proqrama dövlət (o cümlədən AR Neft Fondu) tərəfindən maliyyə dəstəyinin olması |
| **Zəif tərəflər** | - Laboratoriyalar üçün bəzi cihaz və kimyəvi reagentlərin çatışmaması<br>- Bəzi avadanlıqların işlək vəziyyətdə olmaması (bunun üçün böyük xərclər tələb olunmur)<br>- İxtisas fənləri üzrə müasir səviyyədə analizlər aparmaq, elmi tədqiqatlar yerinə yetirmək üçün yerli kadr potensialının nisbətən aşağı olması<br>- Tələbələrə AR iqtisadiyyatının aqrar sektoru ilə bilavasitə bağlı yetəri dərəcədə praktiki bilik və bacarıqların verilməməsi<br>- İDP və ixtisaslar üzrə abituriyentlər və valideynlər arasında kifayət qədər maarifləndirmə işinin təşkil olunmaması<br>- İDP ixtisasları üzrə iş adamları ilə tələbələr (yaxın gələcəyin mütəxəssisləri) arasında əlaqələrin yaradılmaması<br>- Yerli mütəxəssislərin EU-dan olan professor-müəllim heyəti ilə birgə elmi-tədqiqatlar aparmasının mövcud imkanlar baxımından yetərli səviyyədə olmaması<br>- EU-dan olan professor-müəllim heyətinin yerli layihələr, fond/qrant imkanları haqqında yetəri dərəcədə |

| | |
|---|---|
| | məlumatlandırılmaması<br>- İDP üzrə ADAU-ya qəbul olan tələbələrin baza biliklərinin yüksək olmaması (onların çoxunun qəbul ballarının nisbətən aşağı olması buna dəlalət edir)<br>- Tələbələrdən fərqli olaraq, yerli professor-müəllim heyətinin EU-nun müasir onlayn tədris resurslarından istifadə imkanlarının olmaması |
| **İmkanlar** | - Kənd təsərrüfatına aid olan ixtisaslar üzrə İDP sayəsində xarici mütəxəssislərin pedaqoji-elmi potensialından yararlanmaqla, yüksək səviyyəli mütəxəssislər hazırlamaq üçün əlavə imkanların olması<br>- Qarabağ və Şərqi Zəngəzur bölgələrində artıq başlanmış və sürətlə genişlənən aqrar islahatlarda iştirak etmək üçün ADAU qarşısında böyük imkanların açılması<br>- ADAU və EU professor-müəllim heyəti arasında qarşılıqlı əməkdaşlıq<br>- Kənd təsərrüfatı sahəsinə dövlət səviyyəsində dəstəyin olması<br>- Yeni iş yerlərinin yaranması<br>- Bitkilərin kimyəvi analizi, Bitkilərin kimyəvi mühafizəsi, Bitkilərin diaqnostikası, Entomologiya və Fitopatologiya kimi laboratoriyaların, həmçinin istehsalat-təcrübə bazasının, müasir kitabxana sisteminin, tələbələrin EU-nun müasir *onlayn* tədris resurslarından istifadə imkanlarının olması<br>- EU vasitəsi ilə beynəlxalq layihələrdə (o cümlədən, TÜBİTAK vasitəsi ilə) birgə iştirak etmək imkanlarının olması<br>- EU-nin tədris və elmi tədqiqatlar resurslarına giriş imkanları<br>- AR-nın digər ali təhsil müəssisələrindən İDP-yə transfer imkanlarının olması |
| **Təhdidlər** | - AR-nın digər ali təhsil müəssisələrində (məsələn, ADA Universitetində) aqrar sektor ilə bağlı ixtisasların (o cümlədən, İDP-nin) açılması nəticəsində ADAU-EU İDP-yə marağın nisbətən azalması<br>- İDP üzrə ADAU-ya qəbul olan tələbələrin baza biliklərinin yüksək olmaması<br>- Akademik borcu olan tələbələrin say dinamikasında artım müşahidə olunması<br>- EU professor-müəllim heyətindən asılılıq dərəcəsinin davamlı yüksək olması<br>- İDP-yə maliyyə dəstəyinin yalnız dövlət tərəfindən olması<br>- İDP üzrə hazırlanan mütəxəssislərin yaxın gələcəkdə AR-dən |

| | |
|---|---|
| | kənarda uzunmüddətli əmək fəaliyyətinə cəlb edilməsi |
| **Komissiyanın tövsiyələri** | (1) “Komissiyanın meyarlar üzrə təhlili” (2.2) bölməsində verilən tövsiyələr<br>(2) Əlavə olaraq, aşağıdakılar:<br>- Tələbənin biliklərinin qiymətləndirilməsi prosesində məruzələrdəki (prezentasiya), quiz və s. tapşırıqlardakı fəallığı da nəzərə alınsın və sillabuslarda hər birinin qiymət çəkisi qeyd olunsun.<br>- İDP Azərbaycan Respublikası tərəfindən maliyyələşdirildiyi üçün diplom işlərinin mövzularında Azərbaycan ilə əlaqəli mövzulara üstünlük verilsin.<br>- İDP-yə alternativ maliyyə resurslarının yönləndirilməsi və/ya Proqramın özünümaliyyələşdirməsi istiqamətlərində addımlar atılsın.<br>- Türkiyəli professor-müəllim heyəti ilə yerli professor-müəllim heyətinin birgə elmi-tədqiqatlar aparması daha geniş miqyasda, intensiv və davamlı olsun.<br>- İDP çərçivəsində təhsil haqqında effektiv videoçarxlar, marketinq xarakterli reklamlar və digər vasitələrlə məlumatlandırma tədbirləri (xüsusilə, valideyn və abituriyentlər arasında) həyata keçirilsin.<br>- İDP çərçivəsində təhsil alan tələbələr ilə müvafiq sahələr üzrə peşəkar şəxslərin və ya qurumların iştirakı ilə seminarlar, vebinarlar, sahə səfərləri, təlimlər və s. təşkil olunsun, həmçinin tələbələr müvafiq sahələrdə könüllü təcrübə proqramlarına cəlb edilsinlər.<br>- Kitabxanalarda müvafiq ixtisaslar üzrə tədris vəsaitləri artırılsın.<br>- Proqram məzunlarının gələcəkdə işlə təmin olunması ilə bağlı yeni mexanizmlər işlənib hazırlansın.<br>- ADAU-nun digər tələbələrinin İDP çərçivəsində aparılan dərslərdə iştirakı və tədris resurslarından istifadəsi üçün imkanlar yaradılsın.<br>- Tələbələr və professor-müəllim heyəti arasında keçirilən sorğu və rəylər əsasında İDP-ni daha da təkmilləşdirmək.<br>- Mövcud tələbata uyğun olaraq İDP ixtisasları üzrə tyutorlar təyin olunsun.<br>- Tələbələrin məzun olduqdan sonra daha rahat iş imkanları tapması üçün müxtəlif şirkətləri cəlb edərək karyera sərgiləri keçirilsin. |

## Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri

Azərbaycan Dövlət Aqrar Universiteti ilə Türkiyənin Ege Universitetinin “Aqronomluq”, “Aqromühəndislik”, “Bitki mühafizəsi” və “İqtisadiyyat” ixtisasları üzrə ikili diplom proqramlarının akkreditasiyası Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Kollegiyasının 30 sentyabr 2022-ci il tarixli KQ-05 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisəsinin proqram akkreditasiyası üzrə qiymətləndirmə Meyarları”na uyğun olaraq 12 meyar üzrə aparılıb. Qiymətləndirmə zamanı proqramın icrası üzrə aşkarlanmış çatışmazlıqların aradan qaldırılması üçün tövsiyələr (ümumilikdə 46 tövsiyə) verilib. Yekun nəticə olaraq, Akkreditasiya Komissiyası tərəfindən aparılmış təhlil əsasında “Aqronomluq”, “Aqromühəndislik”, “Bitki mühafizəsi” ixtisasları üzrə 12 meyardan 2-i “qismən uyğundur”, 5 meyar “əsasən uyğundur” və 5 meyar isə “uyğundur” kimi qiymətləndirilib. “İqtisadiyyat” ixtisası üzrə isə 12 meyardan 3-ü “qismən uyğundur”, 5 meyar “əsasən uyğundur” və 4 meyar isə “uyğundur” kimi qiymətləndirilib.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, növbəti proqram akkreditasiya qiymətləndirilməsinədək aşağıda qeyd olunan tədbirlərin Azərbaycan Dövlət Aqrar Universiteti tərəfindən həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına nəzarəti təmin etmək məqsədilə Akkreditasiya Şurasının qərarından sonrakı 6 (altı) ay müddətində müvafiq fəaliyyət planının hazırlanaraq təsdiq olunması (TKTA ilə razılaşdırılmaqla);

- Agentlik tərəfindən fəaliyyət planının icrasına nəzarətin təmin edilməsi məqsədilə fəaliyyət planında qeyd edilmiş işlərin icrasına dair illik hesabatların TKTA-ya təqdim edilməsi.

## Təhsil proqramının akkreditasiyası üzrə Komissiyanın yekun rəyi

Təhsil müəssisəsinin proqram akkreditasiyası üzrə Komissiyanın yekun rəyi aşağıdakı kimidir:

- ATM-də keçirilmiş proqram akkreditasiya qiymətləndirilməsinin yekunu olaraq, Azərbaycan Dövlət Aqrar Universitetinin müvafiq meyarlar üzrə fəaliyyətlərinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə “əsasən uyğundur” hesab edilməsi;

Azərbaycan Dövlət Aqrar Universitetinin 2024/2025-ci tədris ilindən başlayaraq növbəti 5 il müddətinə proqram akkreditasiyasından keçməsi məqsədəuyğun hesab edilir.